www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9-10 avqust 2014-cü il Şənbə № 199 (5908) Qiyməti 40 qəpik

Xəbər

## Rus kəşfiyyatçısı Azərbaycan sərhədində saxlanıldı

yazısı səh.14-də

# Ölkənin məşhur hüquqşünası həbs edildi

# QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI ÜÇÜN QARA GÜN

İntiqam Əliyevə 3 maddə üzrə 3 aylıq həbs-qətimkan tədbiri seçildi; RATI rəhbəri Emin Hüseynovun taleyindən xəbər yoxdur; ölkə xaricindən və daxilindən baş verənləri repressiya adlandırdılar; **Novella Cəfəroğlu:** "Müstəqil QHT-lərə basqı edirlər"


08.08.2014

İntiqam Əliyev

yazısı səh.3-də

## "Soçidən sonra müharibə başlayacaq" - Təhlil

Uğurlu Vətən savaşı üçün heç vaxt olmadığı qədər tarixi fürsət yaranıb; qlobal və regional şərtlər, daxili amillər və xalqın ovqatı - hamısı Qarabağın nəfinədir; düşməni yola gətirmək üçün hətta bir uğurlu lokal əməliyyat da yetər...

yazısı səh.9-da

## Gündəm

### Tovuzda tutulan erməni diversant qəfil öldü



Karen Petrosyan general Rövşən Əkbərovun qarşısına gətirildi, xalqımızdan və prezidentdən üzr istədi, ertəsi gün isə naməlum səbəbdən öldü; onun içki düşkünü olduğu söylənir...

yazısı səh.6-da

### Bu gün prezidentlərin Soçi görüşü gözlənilir

yazısı səh.5-də

### Atəşkəs dövründə doğulan şəhidlər

yazısı səh.9-da

### Ələvilər Türkiyə seçkilərinin taleyini dəyişir

yazısı səh.5-də

### "Elit Travel"də nə baş verir?

yazısı səh.12-də

### Bağlanan liseylərin binası dövlət idarələrinə verilir

yazısı səh.10-da

*Rusiyalı politoloq:*

### "Müharibə elə də uzaqda deyil..."

yazısı səh.11-də

### Müəllimlik peşəsini seçən abituriyentlər təqaüd alacaq

yazısı səh.10-da

### Əməkdaşımız çimərlikdə boğulan 5 uşağın yas mərasimindən yazır...

yazısı səh.13-də

### Nabran istirahətinin bilinməyən tərəfləri "Yeni Müsavat"da

yazısı səh.15-də

### "Yol terror"u bir gündə 10 can aldı

yazısı səh.14-də

### Ermənistanda müharibə əleyhinə marş keçirildi

yazısı səh.2-də



*Kamil Vəli Nərimanoğlu:*

### "Ərdoğan 54-55 faiz səs alacaq"

yazısı səh.4-də



*Məleykə Abbaszadə:*

### "Aşağı bal toplayanlar ali məktəblərdən xaric olunmalıdır"

yazısı səh.10-da



*Natiq Miri:*

### "Rusiya-Qərb qarşıdurması ölkəmizə də sirayət edəcək..."

yazısı səh.8-də

9-10 avqust 2014

YENİ MÜSAVAT
N 199 (5908) 9 avqust 2014

## İrəvanda müharibə əleyhinə yürüş

### "Əsgərlər ölür, oliqarxlar varlanır"







**Ermənistanda bir qrup ictmai fəal müharibə əleyhinə yürüş keçirib. Onlar Ermənistan-Azərbaycan sərhədi və Qarabağ-Azərbaycan təmas xəttində vəziyyətin gərginləşməsində "Ermənistan və Azərbaycan rəhbərlikləri və bölgədə öz maraqlarını güdən üçüncü qüvvələri, ilk növbədə Rusiyanı" təqsirləndiriblər.**

Yürüş iştirakçıları Ermənistan və Avropa İttifaqı bayraqları, sülhə çağıran şüarlarla Ermənistan Xarici İşlər Nazirliyi binası önündən şəhərin mərkəzi küçələri ilə keçib, Azadlıq meydanında toplaşaraq Ermənistan və Azərbaycan cəmiyyətlərində "iki xalqı müharibəyə sürükləyən rejimlərin niyyətlərinin gerçəkləşməsinə qarşı mübarizə" yollarını müzakirə ediblər.

Yürüşdə iştirakçıların əllərində tutduqları şüarlar üzərində "Xalqlara - sülh, hakimiyyətlərə - müharibə", "Heç bir ana balasının ölümünü istəmir", "Sülh istəyirsən, hakimiyyəti dəyiş", "Əsgərlər ölür, oliqarxlar varlanır", "Atəşkəs hakim rejimlərin qorunmasına xidmət edir" çağırışları yazılmışdı.

"Qafqaz bölgəsində öz maraqlarını güdən Rusiya son yüz il ərzində xalqlar arasında münaqişələr və ədavəti qızışdırmaqdan çəkinməyib. Bu gün də Ermənistan-Azərbaycan sərhədində axıdılan qan üçün Rusiya Federasiyasının hakim rejimi və onun başçısı da məsuliyyət daşıyır", - deyilir fəalların bəyanatında.

Daha öncə BBC Azərbaycancaya müsahibəsində kremlpərəst təhlilçi Sergey Markov, Moskvanın Qarabağ müharibəsinin qızışmasında rolu barədə iddiaları rədd edib və Rusiyanın öz cənub qonşuluğundan müharibədə deyil, əksinə, sülhdə maraqlı olduğunu qeyd edib.

İrəvanda yürüşçülər həmçinin Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçilik edən ATƏT-in Minsk Qrupunun da "sərhəddə vəziyyətin mütəmadi surətdə gərginləşməsində" təqsirli olduğunu bəyan edib.

"Minsk Qrupu tərəflərə atəşkəsi qorumaq haqqında yazılı çağırışlardan başqa, qan axıdılmasına son qoymaq məqsədilə konkret addımlar atmalıdır", - nümayişçilərin bəyanatında qeyd olunur.

Üç liderin adı təmsil etdikləri ölkənin ana dilində "düşmən" sözü ilə qarşılaşdırılıb.

Yürüş iştirakçıları Ermənistan və Azərbaycan ictimaiyyətlərini münaqişəni "xalqların təsvir etdikləri şəkildə həll etmək üçün" birləşib ictimai müzakirələr meydanını yaratmağa çağırıblar.

## Müsavatçı fəalın həbsində «çanta» müəmması



Fərəc Kərimli

**Həbsdə olan müsavatçı fəal Fərəc Kərimlinin atası Raqif Kərimli oğlunun həbsində ziddiyyətli məqamların olduğunu deyir. O bildirir ki, Fərəc xəstəxanada, anasının yanında tutulduğu halda sənədlərdə tamam başqa ünvan göstərilib:**

"Fərəc iyulun 23-də, səhər saatlarında anasını Bakı Sağlamlıq Mərkəzinə aparıb. Anası mərkəzin reanimasiya şöbəsinə yerləşdirilib. Oğlum saat 11-də zəng etdi ki, ata, məni aparırlar. Xəstəxanaya gedəndə artıq onu aparmışdılar. Mühafizə xidmətindən dedilər ki, hüquq-mühafizə orqanı əməkdaşları xəstəxanada əməliyyat aparmağa icazə alıblar. Fərəci apararkən əməliyyatçılar anasının çantasını da götürüblər. Amma iş burasındadır ki, sənədlərin heç birində çanta haqda məlumat yoxdur. Sənədlərdə göstərilir ki, Fərəci guya Azadlıq prospektində hansısa binanın qarşısında tutublar. Çanta haqda indiyədək heç bir məlumat verilməyib. Burada nə isə var».

**Bakı Sağlamlıq Mərkəzi mühafizə xidmətinin rəisi İlqar Əsədov Fərəc Kərimli aparılarkən, çantanın əməliyyatçılardan birinin əlində olduğunu söyləyib:** "Raqif müəllimin oğlunu 4-5 nəfər gəlib xəstəxanadan apardı. Biz onlara müqavimət göstərə bilməzdik. Çünki gələnlər xəbərdarlıq etdilər ki, əməliyyat keçiriləcək. Biz hüquq-mühafizə orqanlarının bu cür əməliyyatlarına qarışa bilmirik. Atası çantanın itməsində bizi ittiham edir. Mən ona da izah etdim ki, qadının çantası oğlanı aparanların əlində idi».

Nərimanov Rayon Məhkəməsinin Fərəc Kərimlinin həbsi ilə bağlı iyulun 24-də çıxardığı qərarda da onun Azadlıq prospekti, 114 saylı yaşayış binasının qarşısında saxlandığı bildirilir.

R.Kərimlinin fikrincə, bu ziddiyyətli məqam oğlunun həbsinin öncədən planlaşdırıldığını təsdiqləyir.

**Vəkil Nemət Kərimli istintaq davam etdiyindən bu məsələyə geniş açıqlama verməkdən imtina etdi, amma bunu deyib:**

«Səbəblərdən biri budur ki, görünür, hüquq-mühafizə orqanları sifarişlə işləsələr də, özlərində qeyri-humanist imic yaratmaq istəmirlər. Fərəcin xəstəxanada - ağır xəstə olan anasının yanında həbsi humanizmdən çox uzaqdır. Görünür, üzərlərinə qınaq götürmək istəmirlər. Buna görə də sənədləşmədə xəstəxana yox, başqa ünvan göstərilib».

F.Kərimli iyulun 23-də saxlanıb və 2 gün sonra məhkəmə onun haqqında üç aylıq həbs qərarı çıxarıb. Daxili İşlər Nazirliyinin məlumatında saxlanarkən onun üzərindən narkotik maddə tapıldığı bildirilib. Bundan bir neçə gün əvvəl onun qardaşı Sirac Kərimli həbs olunub.

## "Qarabağ ətrafındakı beş rayon Azərbaycana qaytarılır"

**Bu gün Azərbaycan və Ermənistan prezidentlərinin Rusiya prezidenti Vladimir Putinin təşəbbüsü ilə görüşü baş tuta bilər. Rusiya prezidentinin azərbaycanlı və erməni həmkarları ilə görüşəcəyi isə dəqiqdir.**




Görüş ərəfəsində cəbhədəki vəziyyət isə kritik olaraq qalır. Müxtəlif ölkələrdən olan ekspertlər yeni müharibənin başlanma ehtimalını yüksək qiymətləndirirlər.

Publika.az-xəbər verir ki, Rusiyanın "Nezavisimaya qazeta" nəşri cəbhədəki gərginlik fonunda prezidentlərin mümkün görüşünü şərh edib.

Nəşr yazır ki, snayper atəşləri dayanmır, tərəflər mütəmadi olaraq aviasiya gücünü nümayiş etdirir. Böyük Britaniyanın Müharibə və Sülh Araşdırmaları İnstitutunun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Şahin Rzayev prezidentlərin görüşünü şərh edərkən deyib ki, tərəflər arasında yeni razılaşma hazırlana bilər: "İlin sonuna, yaxud da gələn ilin əvvəlinə kimi prezidentlərin danışıqlarında sıçrayış gözləməyə dəyər. Bu sıçrayış ərəfəsində tərəflərin hər biri öz mövqeyini gücləndirməyə çalışır".

Onun fikrincə, prezidentlərin görüşündə müzakirəyə çıxarılacaq sənəd, demək olar ki, hazırdır.

"Tərəflərin hər biri əlverişli mövqe tutmağa çalışır ki, danışıqlarda verəcəkləri qurban daha ağrısız olsun. Əgər yayılan informasiyalara inansaq, o zaman Qarabağ ətrafındakı yeddi rayonun beşi Azərbaycana qaytarılır. İki rayonun taleyi isə həll olunmamış qalır",- deyə o bildirib.

"Nezavisimaya qazeta" nəşri hesab edir ki, əgər prezidentlər Soçidə münaqişənin həlli üzrə hansısa praktiki hərəkətlərə nail olmasalar, o zaman təmas xəttindəki gərginliyin artması qaçılmaz olacaq. Nəşr qeyd edir ki, hər iki tərəfdə ümumi ab-hava müharibəyə köklənib. "Müharibənin başlanması üçün ümumi şərait yetişib. Əgər Soçi görüşü vəziyyəti yumşaltmasa, müharibə başlaya bilər. Bu gözlənilir", - nəşr qeyd edib.



## İcra başçısı kənd sakinini işıqsız qoyub

**Masallının Qızılağac kənd sakini icra strukturlarından şikayətçidir. Cenubnews.com internet qəzeti xəbər verir ki, 1959-cu il noyabr ayının 2-də rayonun Qızılağac kəndində doğulan Ülfət Abbasov ailəsi ilə birlikdə əvvəllər Türkmənistanda yaşayıb. 1999-cu ildə öz kəndinə qayıdıb.**

Ailə 6 uşaqla vətənə döndəndən sonra bir neçə evdə müvəqqəti kirayədə yaşayıb. Ailə başçısı fəhləlik edərək 3 qızına toy edib, köçürüb. Hazırda 3 övladı ilə birlikdə qalan Ü.Abbasov bildirir ki, sonuncu qızı xəstədir, 18 yaşlı oğlu isə bu gün-sabah əsgər gedəcək: "Özüm fəhlə işləyirəm. Yeganə işləyən də özüməm. 20 günə yaxındır bir-iki xeyirxah adamın köməyi ilə balaca bir daxma tikmişəm. Neçə dəfə icra hakimiyyətində, başçı Rafil Hüseynovun, Nadir Abıyevin qəbulunda olmuşam. Dəfələrlə kənd ərazi nümayəndəsi Şamil Məmmədova müraciət etmişəm ki, evə işıq versinlər. Axırda məni hədələdilər və səni "tutdurub basdırarıq içəri" dedilər. Mən vətənə övlad böyüdürəm, bunlar bu özbaşınalıqları niyə bizim hüququmuzu tapdamalıdırlar? İşığım yox, qazım yox, yolumuz yox, özüm fəhləyəm, mən neynəməliyəm?"

❑ **NURLAN**



## Zakir Həsənov yaralı hərbçilərə baş çəkib

### Yaralı əsgərlərimizin 3-ü Türkiyəyə müalicəyə aparılır

**Avqustun 8-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti ötən həftə düşmənin kəşfiyyat-təxribat qruplarının hücum cəhdinin qarşısının alınması zamanı yaralanmış hərbi qulluqçulara baş çəkmək üçün Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub.**

Müdafiə Nazirliyinin mətuat xidmətindən «Trend»ə bildiriblər ki, əvvəlcə nazirliyin rəhbər heyəti xalqımızın ümummilli lideri Heydər Əliyevin hospitalın həyətində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Sonra müdafiə naziri hospitalın reanimasiya və ortopediya bölmələrində müalicə olunan yaralı hərbi qulluqçularla görüşüb. Hər bir döyüşçünün sağlamlıq durumu ilə maraqlanan general-polkovnik Zakir Həsənov onlarla söhbət edib, arzu və istəklərini dinləyib.

Müdafiə nazirinə məlumat verilib ki, hazırda yaralılar intensiv müalicə alır və onların həyati təhlükəsi yoxdur. Hərbi qulluqçular göstərilən yüksək diqqət və qayğıya görə nazirə minnətdarlıqlarını bildiriblər. Hazırda səhhətlərinin yaxşı olduğunu və hərbi tibb kollektivi tərəfindən yüksək qayğı ilə əhatə olunduqlarını söyləyən döyüşçülərimiz tezliklə sağaldıqdan sonra hərbi hissələrinə qayıdacaqlarını və düşmənə qarşı mübarizə ararmaq əzmində olduqlarını ifadə ediblər.

Sonda müdafiə naziri general-polkovnik Zakir Həsənov hospitalın tibb heyətinə öz tövsiyə və tapşırıqlarını verib.

Son günlər cəbhədə yaralanan əsgərlərdən 3-ü müalicə üçün Türkiyəyə aparılır.

Əsgərlərin müalicəsini Türk İş Birliyi və Koordinasiya Agentliyi (TİKA) üzərinə götürüb. Yaralı əsgərlərin Türkiyəyə sabah aparılması planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya faktı təsdiqləyiblər.

## ABŞ İŞİD-i vurdu

### İŞİD-in xeyli sayda canlı itki verdiyi deyilir

**Pentaqon ABŞ-ın İŞİD qüvvələrini vurması haqqında açıqlama yayıb. Hərbi əməliyyatlarda F/a-18 tipli iki savaş uçağından hədəflərə 226 kiloqram ağırlığında lazer bombaları yağdırılıb. İŞİD-in çox sayda canlı qüvvə və texnika itkisi verməsi haqqında xəbərlər var.**



Əməliyyat ABŞ prezidenti Barak Obamanın hava hücumu haqqında əmrindən dərhal sonra başlayıb. Hava hücumunun başlanması haqqında ilk açıqlamanı Pentaqon rəsmisi Con Kirbi twitter hesabından xəbər verib.

ABŞ Hava Qüvvələri uçaqlarının İraqda görünməsi haqqında ilk xəbər avqustun 7-də yayılıb. Bu uçuşların kəşfiyyat xarakteri daşıdığı bildirilmişdi.

Ötən gün ABŞ İŞİD-dən qaçıb Sincar Dağına sığınan yezidilərə də yardım edib. Birləşmiş Ştatların uçaqları əraziyə 8 min qutu yemək və su çatdırıb.

Onu da vurğulayaq ki, ABŞ prezidenti Barak Obama avqustun 7-də xalqa müraciətində İŞİD-in bölgədəki hərəkətlərini soyqırım adlandırmışdı.

❑ **Aygün MURADXANLI**



## Prezidentdən Avropa Oyunları ilə bağlı sərəncam

**Prezident İlham Əliyev I Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında sərəncam imzalayıb.**

Nazirlər Kabinetinə tapşırılıb ki, iki ay müddətində I Avropa Oyunlarının təşkilində və keçirilməsində iştirak edən şəxslərin, habelə oyunların iştirakçılarının akkreditasiya sisteminin təşkili üçün müvafiq tədbirlər görsün, akkreditasiya olunacaq şəxslərin dairəsini müəyyən etsin, akkreditasiyadan keçmə qaydasını və akkreditasiya kartının formasını təsdiq etsin, akkreditasiya sisteminin fəaliyyətinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

Müəyyən edilib ki, müvafiq qaydada akkreditasiyadan keçmiş əcnəbilər və xarici dövlətlərdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər I Avropa Oyunlarının açılışına 60 gün qalmışdan başlayaraq, oyunların bitməsindən 30 gün keçənədək olan dövrdə pasport və ya digər sərhədkeçmə sənədləri və akkreditasiya kartı əsasında Azərbaycan Respublikasına gələ və Azərbaycan Respublikasından gedə bilərlər.

I Avropa Oyunlarına bilet əldə etmiş əcnəbilər və xarici dövlətlərdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər oyunların açılışına 10 gün qalmışdan etibarən Azərbaycan Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında yerləşən struktur bölmələrindən viza ala bilərlər.

Viza üçün müraciət etdikdə I Avropa Oyunlarına bileti və ya biletin əldə olunmasını təsdiq edən sənədi təqdim etməlidirlər.

I Avropa Oyunlarının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan ərazisində əmək fəaliyyətinə cəlb olunan və müvafiq qaydada akkreditasiyadan keçmiş əcnəbilər və xarici dövlətlərdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur.

Maliyyə Nazirliyi və Xarici İşlər Nazirliyinə I Avropa Oyunları ilə bağlı Azərbaycana gələn şəxslərə Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza verilməsi işinin təşkili ilə bağlı maddi-texniki təminat məsələlərinin həlli tapşırılıb.

Xarici İşlər Nazirliyinə tapşırılıb ki, I Avropa Oyunları ilə bağlı Azərbaycana gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə Avropa Olimpiya Komitəsinə və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin, həmin şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumatın nazirliyin, habelə Azərbaycanın xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

Azərbaycan Dövlət Miqrasiya Xidməti isə Azərbaycana uçuşlar həyata keçirən aviasiya şirkətlərinə I Avropa Oyunları ilə bağlı Azərbaycana gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat verəcək.

YENİ MÜSAVAT
N 199 (5908) 9 avqust 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Ölkənin məşhur hüquqşünası həbs edildi

**Hüquq Maarifçiliyi Cəmiyyətinin (HMC) prezidenti İntiqam Əliyev avqustun 8-də həbs edilib. Vəkil səhər saatlarında Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə aparılıb və evində axtarışa başlanılıb.**



Emin Hüseynov





# Qeyri-hökumət təşkilatları üçün qara gün

## İntiqam Əliyevə 3 maddə üzrə 3 aylıq həbs-qətimkan tədbiri seçildi; RATİ rəhbəri Emin Hüseynovun taleyindən xəbər yoxdur; ölkə xaricindən və daxilindən baş verənləri repressiya adlandırdılar; Novella Cəfəroğlu: "Müstəqil QHT-lərə basqı edirlər"



Anar Qasımlı



Nəcmi Əliyev

Bu barədə ölkə KİV-lərinə İntiqam Əliyevin oğlu Nəcmi Əliyev məlumat verib.

O deyib ki, atasını səhər aparıblar, daha sonra onun telefonuna zəng çatmayıb. Ardınca onun Saraydakı evində 10 nəfərə yaxın prokurorluq əməkdaşı axtarış aparıb.

Nəcmi Əliyevin dediyinə görə, evə gələn prokurorluq əməkdaşları ona axtarış aparmağa icazə ilə bağlı məhkəmə qərarı təqdim ediblər.

Qeyd edək ki, bir müddət əvvəl İntiqam Əliyevin rəhbəri olduğu Hüquq Maarifçiliyi Cəmiyyətinin hesabına həbs qoyulub.

İntiqam Əliyev günorta saatlarında istintaqdan çıxıb, polisin müşayiəti ilə axtarış aparılması üçün rəhbəri olduğu Hüquq Maarifçiliyi Cəmiyyətinin ofisinə aparılıb.

Media təmsilçiləri və bir sıra partiyaların fəalları Azadlıq prospekti 71 ünvanında yerləşən ofisin qarşısına toplaşıblar.

**Axtarış İntiqam Əliyevin iştirakı olmadan başlayıb. Hüquq müdafiəçisi özü ofisin qarşısında dayanan polis maşınında saxlanılıb. İntiqam Əliyevə «təqsirləndirilən şəxs» qismində ittiham elan olunub. Bunu ofisində axtarış aparılan zaman İntiqam Əliyev jurnalistlərə özü deyib:** "Ölkədə insan hüquqlarını müdafiə edənləri, seçkilərin saxtalaşdırılmasına etiraz edənləri, siyasi məhbusları müdafiə edənləri cinayətkar sayırlar. Mən də o, "cinayətkar"lardan biriyəm. Dostlar, siz həbsdəkilərin müdafiəsi ilə məşğul olun, mənə ehtiyac yoxdur..."

**Hadisə yerində olan müxbirimiz müsavat.com-a bildirib ki, müstəntiqin çağırışı əsasında ofisə gələn hüquqşünas Ənnağı Hacıbəyli də axtarış aparılan otağa buraxılmayıb. Bu barədə jurnalistlərə açıqlamasında o özü deyib:** "Axtarış aparılan otağa məni buraxmadılar. Çox qarışıqlıq idi. Mən İntiqam müəllimin uşaqlıq dostuyam. Əslində ona xidmətlərinə görə mükafat verilməlidir. Özüm də bilmirəm bu nədir - onun başına gələnlər. İntiqam Əliyev bu ölkənin, bu xalqın milli sərvətidir. Ona qarşı belə hərəkətlər heç bir çərçivəyə sığmır. Ona qarşı irəli sürülən ittihamların heç bir əsası yoxdur. Məqsəd, sadəcə, ölkədə qalan azsaylı vətəndaş cəmiyyətinə birdəfəlik zərbə endirməkdir".

**Ənnağı Hacıbəylinin dediyinə görə, İntiqam Əliyev vəzifəli şəxsin səlahiyyətlərini və qrant vəsaitini mənimsəmədə ittiham olunur:** "Belə ki, Ədliyyə Nazirliyi onun sonuncu dəfə Hüquq Maarifçiliyi Cəmiyyətinin prezidenti seçilməsini qeydə almayıb. İddia olunur ki, guya o, cəmiyyətin prezidentliyi vəzifəsini mənimsəyib. Bundan başqa, İntiqam Əliyev qrant müqaviləsi imzalayıb, pul banka köçürülüb, ancaq Ədliyyə Nazirliyi layihəni qeydə almadığına görə İntiqam müəllim o pulu heç hesabdan çıxarmayıb da. Pul qəpiyinə qədər bankadadır. Absurd ittiham irəli sürüblər ki, pulu mənimsəyib».

Axtarışdan sonra İ.Əliyev Nəsimi Rayon Məhkəməsinə aparılıb.

Məhkəmə prosesi 1 saat yarım çəkib. Məhkəmə binasının önündə çox saylı media nümayəndələri və hüquq müdafiəçiləri olub. İ.Əliyevin vəkili Anar Qasımlı media qarşısına çıxaraq bildirib ki, İntiqam Əliyevin barəsində CM-in 3 maddəsi ilə (192, 213, 308) 3 aylıq həbs-qətimkan tədbiri seçilib.

O deyib ki, müvəkkilinə qarşı əsas ittiham qanunsuz sahibkarlıq, vergidən yayınma və vəzifə səlahiyyətlərindən sui-istifadə olub. İ. Əliyevi ayrı-ayrı qrant layihələrini qanunsuz nəğdləşdirməkdə, onları qeydiyyatdan keçirməməkdə suçlayıblar. A. Qasımlı qeyd edib ki, bu hərəkətlər mövcud olsa belə, cinayət məsuliyyəti yaratmır, inzibati məsuliyyət yaradır: "Bunun qarşılığı cərimədir".

**A.Qasımlı deyib ki, məhkəmə prosesində İntiqam Əliyev də çıxış edib:** "Onun çıxışı belə oldu: "Mənim həbsimi sifariş ediblər, ona görə də buradayam, hakimdən də heç bir xahişim yoxdur, bilirəm ki, ona nə deyiblərsə, edəcəklər. Mənim həbsim bir siyasi sifarişdir, səbəbi də rejimə müxalif olan insanları müdafiə etməm, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparmam, kompromissiz mövqe sərgiləməyimdir".

Vəkil deyib ki, onlar həbsə hazır idilər, buraya gələrkən bu nəticəni gözləyirdilər. Bütün bunlara baxmayaraq, bu qanunsuz həbsdən müvafiq qaydada şikayət veriləcək və mübarizə beynəlxalq müstəvidə davam etdiriləcək.

**İ.Əliyevin oğlu Nəcmi Əliyev atasının həbsinin qanunsuz olduğunu bildirdi:** "Əslində bu həbsi gözləyirdik. Atamı dörd divar arasında sındırmaq mümkün deyil. Əsas həbs olunmaq yox, mübarizənin davam etməsidir. Biz də sona qədər mübarizə aparacağıq".

İntiqam Əliyev BDU-nun hüquq fakültəsini bitirib. Hüquqşünas fəaliyyətinə 1990-cı ildən başlayıb. 1999-cu ildən Hüquq Maarifçiliyi Cəmiyyətinin rəhbəridir. 20 ilə yaxındır ki, vəkillik fəaliyyəti ilə məşğul olur. Əsasən insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşıb. Avropa İnsan Hüquqları Məhkəməsinə 300-dən çox şikayət ünvanlayıb. 23 işi uğurla başa vurub.

Xəzər, Qərb, Azərbaycan, Odlar Yurdu universitetlərində mülki, mülki-prosessual, qeyri-kommersiya hüququ, insan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri fənlərindən dərs deyib.

Bir sıra beynəlxalq qurumların *(ATƏT, Avropa Şurası, GTZ və s.)* qanunvericilik və insan hüquqları məsələləri üzrə ekspertidir. 20-dən çox kitabın müəllifidir.

2013-cü il martın 4-də o, «People in Need» insan haqları təşkilatının mükafatına layiq görülüb.

«Homo Homini» adlanan mükafat hər il insan haqları sahəsində fədakarlıq göstərən fəallara verilir.

***

Avqustun 8-də günün ikinci yarısında Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun Səbayel rayonunda yerləşən ofisini də polis mühasirəyə alıb. Polis, prokuror və vergi müfəttişləri RATİ-nin ofisində axtarış aparmaq istəyiblər. Amma RATİ-nin əməkdaşları vəkilləri gələnə kimi onları ofisə buraxmayıb. Polis reportaja gələn jurnalistləri RATİ-nin yerləşdiyi ofisin həyətindən uzaqlaşdırmağa çalışıb. Bundan sonra əraziyə Post-Patrul Xidmətinin əməkdaşları da çağırılıb. Polislər yenidən ofisə girməyə cəhd göstərsələr də RATİ-nin ofisində qalan 6 əməkdaş qapını onlara açmayıb.

Xəbəri eşidən hüquq müdafiəçiləri Novella Cəfəroğlu və Səidə Qocamanlı RATİ-nin ofisinə gəliblər. Lakin ərazidə polis postu qurulduğundan onları ofisin yerləşdiyi binanın həyətinə buraxmayıblar. Baş Prokurorluğun əməkdaşları hüquq müdafiəçilərinə məlumat verib ki, ofisdə axtarış aparılması ilə bağlı məhkəmə qərarı var. Onlar hüquq müdafiəçilərindən xahiş ediblər ki, ərazidən uzaqlaşsınlar və onların qanuni fəaliyyətinə mane olmasınlar.

**Hadisə ilə bağlı "Yeni Müsavat"a açıqlama verən hüquq müdafiəçisi, Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu bildirib ki, bu, müstəqil QHT-lərə basqıdır:** "Sanki bir dalğa başlayıb. Müstəqil QHT-lərə basqı edirlər. Gəldik ki, RATİ-yə olan basqının səbəbini öyrənək. Hüquq-mühafizə orqanlarının əməkdaşları bizi ofisin yerləşdiyi binanın həyətinə belə buraxmadı".

Təxminən 4 saatlıq gözləmədən sonra polis əməkdaşları RATİ-nin ofisinə girməyi bacarıblar. Ofisdə qalan əməkdaşlar çölə çıxarılıb və yoxlamalara başlanılıb. Hüquq-mühafizə orqanları axtarışlarla bağlı jurnalistlərə heç bir açıqlama verməyiblər.

Daha sonra RATİ-nin ofisinə Baş Prokurorluğun daha bir neçə əməkdaşı gəlib.

Meydan TV xəbər verib ki, RATİ sədrinin bank hesablarına və ölkədən çıxışına da qadağa qoyulub. O, Respublika Prokurorluğunun Ağır Cinayətlər üzrə İstintaq İdarəsinə aparılıb.

**Virtualaz.org saytı isə xəbər verib ki, E.Hüseynovun telefonuna zəng çatmır:** "RATİ əməkdaşlarının onunla telefon əlaqəsi yaratmaq cəhdləri saatlardır ki, nəticəsiz qalıb".

Daha sonra məlumat yayıldı ki, RATİ-nin rəhbəri Emin Hüseynov saxlanılmayıb, o, ABŞ-ın Azərbaycandakı səfirliyindədir.

Axşam saatlarında bəlli olub ki, RATİ-nin ofisində araşdırma aparan prokurorluq əməkdaşları ofisdəki bütün kompüter və sənədləri aparıblar. Həmçinin RATİ-nin digər ofisində də axtarış aparmağa cəhd ediblər.

ABŞ səfirliyindən isə musavat.com-a bildirilib ki, Emin Hüseynov ABŞ səfirliyində ümumiyyətlə olmayıb. Qəzetimiz çapa gedənə qədər onun yeri və taleyi haqda dəqiq məlumat yox idi.

***

ATƏT-in media azadlığı üzrə nümayəndəsi Dunya Miyatoviç Azərbaycanda azad media fəallarına və təşkilatlarına qarşı təqiblərin intensivləşməsindən hiddətlənib.

Avqustun 8-də yayılan press-relizdə deyilir ki, kimliyi bilinməyən bir qrup şəxs Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) ofisinə daxil olmağa çalışdığı vaxt Prokurorluğun nümayəndələri RATİ-nin rəhbəri Emin Hüseynovun anasının evində axtarış aparıblar və onun anasının kompüterini aparıblar.

Avqustun 5-də isə Emin Hüseynovu Bakı Hava Limanından çıxmağa qoymayıblar. O, İstanbula - təcili tibbi müalicə almağa gedirdi. Onun səyahətinə niyə qadağa qoyulduğu izah edilməyib.

**Miyatoviç Azərbaycan hakimiyyətini medianı və azad səxsləri təqib etməyi dayandırmağa çağırır və son vaxtlar Azərbaycanda baş verənləri xatırladır:**

"Media Hüququ İnstitutunun və onun rəhbəri Rəşid Hacılının bank hesabları dondurulub. Ümumiyyətlə, hazırda Azərbaycanda 10-dan çox media nümayəndəsi həbsdədir".

Miyatoviç vurğulayır ki, onlara qarşı cinayət işləri böhtan kampaniyası ilə müşayiət olunur.

Miyatoviç Azərbaycanda ifadə azadlığının geriləndiyini bildirir və Azərbaycan hökumətini ATƏT qarşısında götürdüyü öhdəliklərə əməl etməyə çağırır. O, hökumətin diqqətinə çatdırır ki, jurnalistlər azad mühitdə işləyə bilməlidirlər.

Miyatoviç əmindir ki, yaxın vaxtlarda Bakıya gələcək və onun səfəri bu məsələlərin həllinə kömək edə biləcək *(AzadlıqRadiosu)*.

❑ **Cavanşir ABBASLI,**
**Fərahim İLQAROĞLU**
**Fotolar müəlliflərindir**

YENİ MÜSAVAT
N 199 (5908) 9 avqust 2014



# Ugurlu olsun, Türkiyə!

Hüseynbala SƏLİMOV

**Bəli, Türkiyədə də seçki vaxtı yetişdi. Cari siyasi həftənin öz yekununa yaxınlaşması bizi onun indi əsas hadisələrindən birinə- bir daha Türkiyədəki prezident seçkilərinə diqqət ayırmağa vadar edir. Bəlli olduğu kimi, avqustun 10-da müsəlman dünyasının lideri olan Türkiyə öz tarixində ilk dəfə olaraq ümumxalq prezident seçkisi keçirəcək.**

Kimi bu seçkinin nəticələrinin artıq bəlli olduğunu deyir, kimi də seçkidə siyasi sürprizlər yaşana bilməsini iddia edir- bir sözlə, seçkiyə maraq var və o, həftə sonu üçün əsas siyasi hadisələrdən biri kimi diqqətdə olmağa layiqdir.

Bəlkə də bu ölkədə keçirilən seçkinin də önəmi ondadır ki, burada seçkilər digər müsəlman ölkələrində, məsələn, İranda olduğu kimi irəlicədən hansısa siyasi arqumnetlərlə məhdudlaşdırılmır və yaxud da Pakistanda olduğu kimi radikal siyasi müdaxilələrlə, terror aktları ilə müşayiət olunmur, seçki Avropa ölkələrində necə keçirsə, Türkiyədə də elə cərəyan edir...

Təbii ki, siyasi təhlilçilərin də böyük hissəsi indi əsas namizədlərdən birinin- R. T. Erdoğanın şanslarını yüksək qiymətləndirir. Amma bu şanslar bəzi MDB ölkələrində, eləcə də Azərbaycanda tez-tez baş verdiyi kimi sırf inzibati resurslar hesabına formalaşmır- baş nazir digər namizədlərlə bərabər mübarizə aparır, üstəlik, ölkədə seçki prosesi o qədər şəffafdır ki, ona hansısa məmur müdaxiləsindən danışmaq tamamilə yersizdir...

Bu seçkinin önəmi təkcə onun ilk dəfə ümumi və bərabər əsaslarla keçməsində deyil. Seçkinin nəticəsindən asılı olaraq ölkədə siyasi islahatlar bu və ya başqa istiqamətdə davam edə bilər.

Hətta istisna deyil ki, indiki baş nazirin prezident seçiləcəyi təqdirdə ölkə tamamilə prezident üsul-idarəsinə doğru addımlasın. Digər əsas namizədə və onun bu xüsusdakı siyasi prlatformasına gəldikdə isə, E.İhsanoğlu bu xəttin əleyhinə olduğunu və ölkə üçün ən optimal siyasi idarə üsulunun parlament pespublikası olduğunu bildirib.

Burada çox maraqlı detalı qeyd etmək yerinə düşər. E.İhsanoğlu mühafizəkar yönümlü siyasi lider kimi təqdim edilsə də və elə müxalifət də onun namizədliyini məhz buna görə irəli sürsə də, onun paltforması ilə yaxından tanışlıq bu adamın çox mütərəqqi siyasi lider olduğunu deməyə əsas verir.

O, ölkədə ideoloji qarşıdurmanın kəskinləşməsindən narazılığını bildirir və indiki baş nazirin dövründə cəmiyyətdə mühafizəkarlığın artmasından gileylənir.

Təbii ki, E. İhsanoğlunun digər namizədlərlə müqayisədə üstün cəhətləri olduğugu kimi zəif tərəfləri də var. O, digər namizədlərlə- R.T.Erdoğan və S. Dəmirtaşla müqayisədə ugurlu elmi karyera sahibi olsa da, ölkədə bir o qədər də yaxşı tanınmır. Üstəlik, onun liderlik keyfiyyətləri də müəyyən qədər şübhə oyadır. Bu adamın seçki kampaniyasını da o qədər də uğurlu hesab etmək olmaz.

Kürd əsilli elektorata söykənən S.Demirtaş kimi onun da dindar elektorat arasında ciddi dəstək tapacağı güman olunurdu. Amma ilk siyasi və ictimai təmaslar bunu şübhə altına aldı. Hətta məlum oldu ki, türkiyəli şiələr-ələvilər İhsanoğluna səs vermək niyyətində deyillər...

Təbii ki, bütün qiymətləndirmələr R.T. Ərdoğanın şanslarının çox yüksək olduğunu deməyə əsas verir. Elə ölkədə aparılan ictimai və sosioloji sorgular bunu təsdiqləyir. Hətta bəzi qiymətləndirmələrə görə indiki baş nazir səslərin 57 faizinə sahib olacaq...

Amma Erdoğan çox iddialı siyasətçidi. Onun siyasi nüfuzunun çox olması bəzən mənfi qərarlara da yol aça bilər. Yəqin ki, sosial şəbəkələrlə bağlı proses oxucuların və dinləyicilərin yadındadır. O vaxt Türkiyə məhkəməsi bu ölkənin demokratik bir ölkə olduğunu sübut etdi. Amma Ərdoğana qalsaydı bəlkə də Türkiyə ictimaiyyəti sosial şəbəkələrə çıxışdan məhrum olacaqdı...

Bəzən siyasətdə izafi nüfuz və xarizma avtoritarizmə yol açır. Bunu insanlar hələ Afina demokratiyası zamanı hiss etmişdilər- həddən çox ictimai nüfuza və xarizmaya malik şəxsləri bir müddətə Afinadan sürgün edirdilər...

İndi Afina vaxtı deyil. Amma avtoritarizm təhlükəsi həmişə realdır, yetər ki, cəmiyyət siyasi sayıqlığını itirsin...

Ona görə də sual qalır: ilk prezident seçkisi Türkiyəni hara aparır? Hələ ki biz də bilmirik, amma "Ugurlu olsun!" deyirik...

**Sabah Türkiyə tarixində ilk dəfə prezident seçkiləri keçirir. İstanbul Aydın Universitetinin professoru Kamil Vəli Nərimanoğlu "Yeni Müsavat"ın Türkiyə gündəmi, seçkiqabağı durum haqqında suallarını cavablandırıb.**

# "Ərdoğan 54-55 faiz səs alacaq"

## Kamil Vəli Nərimanoğlu: "Yəqin ki, seçkidən sonra bu partiyalarda da böyük təlatümlər olacaq"



**- Kamil müəllim, uzun illər Türkiyədə yaşamağınız sizə həm də qardaş ölkədə bir neçə seçki prosesini izləmək imkanı verib. Türkiyə tarixindəki ilk prezident seçkilərini digər seçkilərdən fərqləndirən bir özəllik varmı?**

- Bu, ilk prezident seçkiləri olduğu üçün Türkiyənin tarixi seçimi sayılır. Mustafa Kamal Atatürk Türkiyə dövlətinin qurucusu olduğu üçün o, bu müqayisəyə gəlmir, ancaq ondan sonrakı bütün prezidentləri, ya siyasi elita, ya da parlament təyin edib. Avqustun 10-da Türkiyə vətəndaşı ilk dəfə prezidentini özü seçəcək. Seçkiqabağı şərait yetərincə demokratikdir. Namizədlər vətəndaşlarla görüşür, mesajlarını verir, Türkiyəni necə görmək istədikləri ilə bağlı fikirlərini açıqlayırlar. Ola bilər ki, hardasa seçki prosesinin nəticələrinə kölgə salan olay, səhlənkarlıq da olub. Bunlar istənilən ölkədə keçirilən seçkidə yaşanır. Əsas odur ki, bütün bunlar ümumi mənzərəyə təsir edəcək səviyyədə deyil.

**- Əsas mübarizənin AKP namizədi və müxalifətin vahid namizədi arasında gedəcəyi bəllidir. Sizcə, birinci turda namizədlərdən birinin 50+1 səs qazanması mümkün olacaqmı?**

- 10 avqustda seçkinin taleyi həll olunacaq. Mən buna şübhə etmirəm. İkinci mərhələyə ehtiyac qalmayacaq. Türkiyədə seçki obyektiv keçir. Burada yaşadığım illərdə keçirilən seçkilərdə belə görmüşəm. İctimai fikir Ərdoğanın tərəfindədir. Bu, açıq-aydın hiss olunur. Doğrudur, müxalifətin vahid namizədi professor Ekmeleddin İhsanoğlunu 14 siyasi partiya, eləcə də Fətullah Gülən camaatı müdafiə edir. Mənim hesablamalarıma görə, onlar ən yaxşı halda 30-35 faiz ancaq səs toplaya biləcəklər. İhsanoğlu daxili siyasətdə yeni olsa da onun dəstəkçiləri uzun illərdir Türkiyə siyasi səhnəsindədirlər və vətəndaş onları seçmir. Bunun da bir neçə səbəbi var. Türk xalqı işə qiymət verir. Kim iqtidar olanda millət, vətən, dövlət üçün hansı işləri görüb, xalqa verdiyi vədlərin nə qədərini yerinə yetirib, bunlar çox önəmlidir. AKP iqtidarı Türkiyədə ciddi quruculuq işləri görüb, iqtisadiyyatda ciddi islahatlar aparıb. Təhsil, mədəniyyət, təbliğat sahəsində ciddi uğurlar əldə edib. Görülən bu işlər baş nazir Rəcəb Tayyib Ərdoğanı millətin gözündə ucaldıb. Ərdoğan iqtidarı kürd məsələsində, insanların geyim sərbəstliyi məsələsində böyük islahatlara imza atıb. İnanıram ki, çox ciddi problemlərin çözümündə də Ərdoğan prezident kimi öz sözünü öz komandası ilə birlikdə deyəcək.

**- Müxalifət namizədini ölkənin düşünər kəsiminin ciddi müdafiə etdiyi deyilir. İhsanoğlunu dəstəkləyən partiyaların sayı artıq 14-ə çatıb. Sizcə, müxalifət bu seçkidə qələbə üçün düzgün taktika yürütmədi?**

- Elm adamı olsam da, siyasətlə də fəal məşğul olmuşam. Müxalifət partiyaları içərisində rəğbət bəslədiyim partiya var. Məsələn, Milliyyətçi Hərəkat Partiyası. Dış türklər olduğumuz üçün biz hamımız MHP-liyik əslində. Amma bugünkü MHP iqtidarı söyməkdən və tənqid etməkdən başqa heç bir işlə məşğul deyil. Siyasi partiyanın işi yalnız iqtidarı söyməkdə deyil ki? İqtidarı tənqid etmək lazımdır, ancaq bunun yanında millətə hansı alternativlər təqdim olunduğunu da bildirmək lazımdır. Müxalifət millət üçün hansı işlər görə biləcəyini, nə yollar aça biləcəyini də açıqlamalıdır. Bugünkü Türkiyə müxalifətində bunlar yoxdur. Taleyi, ideologiyası fərqli olan partiyaların Ərdoğanı yıxmaq uğrunda birləşməsi heç də uğurlu addım deyil. Mənə elə gəlir ki, bu "Pensilvaniya cəhdidir". Bu seçkidə müxalifətin nə taktikası, nə strategiyası anlaşılmadı. "Çatı adayı" Ekmeleddin İhsanoğlunu ölkədə çox az adam tanıyır. Mən elm adamı olduğum üçün şəxsən tanıyıram. Ancaq insanlar onu yeni-yeni görür. İhsanoğlunun sahəsi din tarixidir

## "İhsanoğlu orta səviyyəli alimdir"

və o, orta səviyyəli alimdir. O, ortaya bir vizyon qoyan, xarizması olan, siyasi mənliyi olan, tanınmış insan deyil. Onu adətən Əhməd Necdət Sezərlə müqayisə edirlər. Sezər çox passiv və Türkiyənin ən uğursuz prezidentlərindən biri idi. Hüquqçu olduğu üçün bir sıra işlər görmək istəyirdi, ancaq bacarıqlı siyasətçi ola bilmədi. Bu gün Türkiyəyə Turqut Özal kimi konkret hədəfləri olan bir şəxs gərəkdir. Digər namizədlər etnik milliyyətçiliklə önə çıxmağa çalışırlar. Bu da uğursuz addımdır. Bir tərəfdə kürd-türk münaqişəsini həll etmək istəyən, bunun üçün bir konsept yaradan bir hökumət, bir lider dayanıb, bir tərəfə də etnik ayrımçılıq edən bir lider. Etnik millətçilik üzərindən siyasət yürütmək istəyən liderə uzaq başı marjinallar səs verə bilər, çoxluq onu dəstəkləməyəcək. Etnik milliyyətçiliklə səs almaq millətin səsini almaq deyil. Mən inanıram ki, Ərdoğan avqustun 10-da 54-55 faiz səs toplayacaq.

**- AKP üzərində ciddi bir korrupsiya ittihamı qalır. O ittihamlar üzrə başlanan əməliyyatlar bu gün də davam edir. Siz vətəndaşın korrupsioner iqtidarlara sevgisini nə ilə izah edirsiniz?**

- Mən belə düşünmürəm. Türkiyədə millət öz liderini sevir. Türkiyə cəmiyyəti belə gərgin siyasi dönəmləri ilk dəfə deyil ki yaşayır. Əlbəttə, partiya maraqları ilə çalışanlar var, öz ideologiyası üçün çalışan var, eyni zamanda aranı pozmaq üçün çalışanlar var. Tanıdığım, çevrəmdəki insanların çoxu "kimə səs verəcəksiniz" sualına "Ərdoğana" cavabını verir. Əsas odur ki, Türkiyədə seçkilər azad keçirilir. Bu, dünyada hakimiyyətin formalaşdırılması üçün ən sınanmış üsuldur. Türkiyədəki seçki bizim Azərbaycanda olan stalinsayağı seçkidən mahiyyətcə tamamilə fərqlənir.

**- Ərdoğan qələbə çalsa, bu, müxalifət düşərgəsinə nə cür təsir edə bilər? 6 ayda iqtidara 2 seçkini uduzan müxalifət daxilində dəyişikliklər gözləyirsizmi?**

- Yəqin ki, seçkidən sonra bu partiyalarda da böyük təlatümlər olacaq. Yeni liderlər gələcək, ortaya başqa siyasi axınlar çıxacaq. Hər halda, Türkiyə öz cümhuriyyət tarixinin 100 illiyinə, özünün çox böyük tarixi yaralarını sarmağa doğru inamla addımlayır. Türkiyə iqtisadi baxımdan, insanların rifahı baxımından, sosial rifah baxımından inadla irəliləyən, haqqını arayan, axtaran ölkədir. Mən bir məsələni də vurğulamaq istəyirəm, Azərbaycan mediasında bəzən Türkiyə ilə bağlı doğru olmayan yazılar, yorumlar gedir. Azərbaycan iqtidarının ən xırda səhvini deyə bilməyən insanlar, AKP iqtidarını, Türkiyə prezidentini sərt tənqid edirlər. Məncə, insanlar öncə öz ölkələrindəki durumu, demokratiyanın

## 10 avqust seçkisindən sonra müxalifət partiyalarına yeni liderlər gələ, ortaya yeni axınlar çıxa bilər

səviyyəsini müzakirəyə çıxarmalıdırlar. Bu gün o yazıların müəllifləri həyatlarında bir dəfə də normal seçki prosesi, səsvermə görməyən insanlardır. Subyektiv olmaq gərək deyil. Təhlil obyektiv, soyuqqanlı olmalıdır. Şəxsən mən Ərdoğan seçilərsə, bir Azərbaycan türkü olaraq sevinəcəm. Çünki mən Ərdoğanın önderliyi ilə qardaş Türkiyənin öz hədəflərinə çatacağına inanıram.

❑ Aygün MURADXANLI

YENİ MÜSAVAT
N 199 (5908) 9 avqust 2014




# Prezidentlərin Soçi görüşü bu günə qaldı

## Ekspertə görə, Ermənistanın görüşə güclü tərəf kimi getmək istəyi alınmayıb; "İrəvanla Moskva arasında münasibətlər pozula bilər..."

**Azərbaycan və Ermənistan dövlət başçılarının Soçidə avqustun 8-də nəzərdə tutulan görüşü təxirə salınıb. Virtualaz.org saytının Rusiya KİV-lərinə istinadən verdiyi xəbərə görə, Putin şənbə günü - avqustun 9-da Ermənistan prezidenti Serj Sərkisyanla və Azərbaycan prezidenti İlham Əliyevlə ayrı-ayrılıqda görüşəcək.**

"Əliyevlə söhbət zamanı Rusiya-Azərbaycan əməkdaşlığının ən mühüm məsələlərini müzakirə etmək, hər şeydən əvvəl energetika, investisiya və regionlararası kooperasiya sferasında qarşılıqlı faydalı layihələrin irəliləməsinə dair birgə addımları razılaşdırmaq planlaşdırılır" - deyə açıqlamada bildirilir.

Kreml bildirir ki, Putin Sərkisyanla iki ölkə arasında siyasi, humanitar, ticarət-iqtisadi əməkdaşlığın sonrakı inkişafını müzakirə edəcək. Ermənistanın Avrasiya İqtisadi Əməkdaşlıq Müqaviləsinə qoşulması prosesinə xüsusi diqqət ayrılacaq. Açıqlamada Putinin Əliyev və Sərkisyanla Qarabağ məsələsini müzakirə edəcəyinə dair hər hansı qeyd yer almır. Rusiyanın "İzvestiya" qəzeti isə mənbəyə istinadən Putinin Soçidə Azərbaycan və Ermənistan prezidentləri ilə yanaşı, Qırğızıstan prezidenti Almazbek Atambayev, Türkmənistan başçısı Qurbanqulu Berdiməhəmmədov və Misir prezidenti Abdul-Fəttah əs-Sisi ilə də görüşəcəyini yazıb. Bəzi informasiyalara görə, bu gün Əliyev-Sərkisyan görüşünün baş tutması istisna da deyil.

**Ankara Universitetinin doktorantı, "Bilgesam" Araşdırmalar Mərkəzinin Avrasiya üzrə eksperti Orxan Qafarlı deyir ki, 2008-ci il Gürcüstan savaşından sonra Rusiya Cənubi Qafqazda Ermənistan-Azərbaycan münaqişəsini nəzarətdə saxlamaq üçün hər il avqust ayında prezidentlərin görüşünü təşkil edir. Ekspertin fikrincə, Rusiyanın bu görüşləri təşkil etməsinin əsas məqsədi ABŞ və AB-yə Gürcüstanla münaqişədən sonra da regionu öz nəzarətində saxladığı mesajını verməkdir:** "Sərkisyan və İlham Əliyev arasında görüşlərdən əvvəl artıq neçənci dəfədir ki, Ermənistan cəbhədə atəşkəsi pozur. Burda Ermənistanın əsas hədəfi Azərbaycanla danışıqlar masası arxasında oturarkən güclü görünmək istəyidir. Lakin bu dəfə Azərbaycan Ermənistanın bu provokasiya cəhdlərinə açıq şəkildə əks-hücumla yüksək səviyyədə cavab verməyə çalışdı. Ermənistan tərəfinin Azərbaycanın bu reaksiyasından narahat olduğu erməni mediasında açıq şəkildə sezilir".

**O.Qafarlı deyir ki, bu dəfə Ermənistanın Soçi görüşü öncəsi Azərbaycanı belə bir provokasiyaya çəkməsinin əsas səbəbi Rusiyaya mesaj vermək niyyətli idi:** "Çünki Rusiya Azərbaycanla olan münasibətlərini yaxşılaşdırmaq üçün Qarabağ münaqişəsinin həlli istiqamətində irəliləməyə nail olmağa çalışır. Bu isə Madrid prinsipləri əsasında aparılır. Ancaq Ermənistan tərəfi Madrid prinsiplərini qəbul etmək istəmir. Və mümkün olduğu qədər status-kvonun qorunmasını istəyir. Çünki nə qədər çox zaman qazansalar, bu, onların xeyrinədir. Bu gün Ermənistanın Rusiyaya Qarabağ məsələsində təzyiq etmək niyyəti var. Çünki Ermənistan anlayır ki, Avrasiya Birliyinə daxil olduqdan sonra Rusiya Azərbaycanı da bir şəkildə bu birlikdə görmək istəyəcək və bunun üçün Ermənistana təzyiq edəcək. Ermənistan isə qabaqcadan bunun qarşısını almaq istəyir".

**Digər tərəfdən, ekspertin fikrincə, Ermənistan rəhbərliyi anlayır ki, Rusiyanın Ukrayna hadisələrindən sonra imici çox ciddi şəkildə zədələnib. Moskvanın imicini düzəltmək üçün Qarabağ münaqişəsini həll etmək niyyəti var:** "Ermənistanın narahatlığının daha bir səbəbi bununla bağlıdır. İrəvan vəziyyəti öz xeyrinə dəyişməyə çalışır. Burda bir məntiq var ki, əgər Azərbaycan Soçidə güclü tərəf olaraq görünmək istəsəydi, atəşkəsi pozmaq istəsəydi, o zaman bir-iki kəndi azad edib, masaya oturardı. Lakin Azərbaycan rəhbərliyi bu addımları atmadı. Çünki anlayır ki, Ermənistanın təxribatı var. Eyni zamanda Azərbaycan hərbi sənayesi və büdcəsinə görə onsuz da güclü görünməkdədir".

**Qafarlı deyir ki, Soçi görüşündən sonra böyük ehtimalla Ermənistan və Rusiya arasında münasibətlər pozula bilər:** "Ermənistanın keçmiş təhlükəsizlik naziri David Şahnazaryan ötən gün mətbuata verdiyi müsahibəsində bu narahatlığı açıq şəkildə ifadə etdi. Onun sözlərinə görə, Rusiya kanalları son atışmalarda Azərbaycanın itkiləri ilə bağlı daha çox məlumat verməyə başlayıblar. Bir növ Azərbaycanı zərərçəkmiş göstərmək üçün. Əvvəllər isə Rusiya tam tərsini edirdi. Bu fikirləri Şahnazaryanın ifadə etməsi Ermənistan siyasilərinin narahatlığının açıq göstəricisidir. Azərbaycan-Ermənistan arasında baş verən son qarşıdurma və ardınca Ermənistan ordu rəhbərliyinin Mingəçevir su anbarını Azərbaycan ordusunun hücumundan doğan narahatlıqla bağlıdır. Ermənistan Azərbaycanı bu provokasiyaya çəkdikdə düşünürdü ki, özlərini yenə də hücuma məruz qalmış imicində göstərə biləcək. Lakin iş-işdən keçəndən sonra, xüsusən də ABŞ, AB və Rusiyanın bir anlıq səssiz qaldıqlarını gördülər. Bu zaman Azərbaycanın iki rayonu alması xəbərləri dövriyyəyə girdi və bu, Ermənistanı narahat etməyə başladı".

❑ **KƏNAN**

# Ələvilər Türkiyə seçkilərinin taleyini dəyişir

## Səsverməyə 1 gün qalmış daha 7 milyon vətəndaş "İhsanoğlu" dedi

**AKP-nin Ekmeleddin İhsanoğluna qarşı növbəti qara piarı da iflas edib. Son günlər hakim AKP-yə yaxınlıqları ilə tanınan media orqanları professor İhsanoğlunun prezident seçilərsə "erməni soyqırımı"nı tanıyacağı haqqında xəbər yayıb. Ekmeleddin İhsanoğlu ermənilərin "Aqos" qəzetinə verdiyi müsahibədə bu məsələyə tam fərqli münasibət bildirib. Qəzetin "erməni probleminin çözümü üçün nələr təklif edirsiniz" sualına Ekmeleddin İhsanoğlu "Sizin "problem" adlandırdığınız məsələ ilə bağlı fransız elm adamlarının təklif etdiyi yolu doğru sayıram. Yəni tarixi tarixçilərin öhdəsinə buraxmağı" cavabını verib.**

Qəzetin "baş nazir Ərdoğanın başsağlığı mesajını necə dəyərləndirirsiniz? Sizcə, 2015-də Türkiyə dövləti nə etməlidir" sualına isə İhsanoğlu belə cavab verib: "Birincisi, başsağlığı sözlə olmaz, bunu daxilinizlə hiss etməli, ondan sonra gərək olanı etməlisiniz. Fikrimcə, 2015-ci il böyük müzakirələrin sonu olmalıdır".

**Erməni qəzetinə müsahibəsində Ekmeleddin İhsanoğlu Ermənistan-Azərbaycan məsələsi haqqında düşündüklərini də açıqlayıb:** "Türkiyənin Ermənistanla Azərbaycan arasında vasitəçilik etməsi mümkün versiyadır. Ancaq bunun üçün ilk sırada o ölkələrin anlaşmaya meylli olması gərəkdir. Qonşu ölkələrin sərhədlərinin qapalı olması təbii hal deyil. Ancaq Dağlıq Qarabağ problemi çözülmədən, Azərbaycanın 1 milyondan çox qaçqını yurduna dönmədən Türkiyə-Ermənistan sərhədinin açılmasından danışmaq yalnız mövzunu dəyişdirməkdir".

**"Aqos"un "sizin seçki plakatınızda "Türk millətinin qüruru" yazılıb. Sizin üçün türk milləti kimlərdir" sualına cavab verən İhsanoğlu deyib ki, Türkiyə cümhuriyyətinə vətəndaşlıq bağı ilə bağlı olan hər kəsi türk millətindən sayır:** "Mən siyasi karyeram boyunca türk siyasi yaşamına yön verən bir çox liderlə çalışmışam. Onlardan biri də rəhmətlik Alparslan Türkeşdir. Ancaq bu durum mənə həmin siyasi şəxsiyyətlərin mənsub olduğu siyasi partiyalarla bağlı açıqlama vermək haqqı vermir. Bundan başqa, unudulmamalıdır ki, mən bir siyasi partiyanın üzvü, namizədi deyiləm. O siyasi partiyalarının yolu, ideologiyaları onların özlərinə aiddir. Bu arada AKP-nin namizədi Ərdoğanın "haqqımda çox çirkin sözlər deylər dedilər, bağışlayın, erməni-filan olduğumu söylədilər" deməsinə MHP sədrinin müavini Toğrul Türkeşin yorumunu yada salmaq istəyirəm. Toğrul Türkeş dedi ki, erməni olmaq bir günah, qüsur, çirkinlik, ayıb, ya da günah deyil. Aid olduğumuz etnik və mədəni qruplar uca Rəbbimizin təqdirinin nəticəsidir və bunların Allah qorusun, ayıb kimi təqdim edilməsi günahların ən böyüyüdür. Baş nazirin bu sözləri qanunlarımıza görə də toplum içərisində nifrət və kin yayılması sayılır. Sonda bütün insanları və qurumları özlərini təhlükəsizlikdə hiss etdikləri bir ölkə yaratmaq üçün 10 avqustda seçkiyə gəlməyə dəvət edirəm".

Türkiyənin ələvi dərnəkləri 10 avqust prezident seçkisində professor Ekmeleddin İhsanoğlunu dəstəkləyəcək. Ələvi dərnəkləri belə bir açıqlamanı avqustun 8-də elan edib. Seçkinin bir addımlığında ələvilərin verdiyi bu qərar Türkiyədəki seçki mənzərəsini Ekmeleddin İhsanoğlunun xeyrinə dəyişib. Bu, seçkilərdə professor İhsanoğlunun daha 7 milyon səs alması deməkdir.

900 ələvi dərnəyini birləşdirən Ələvi Vəqfləri Federasiyasının başqanı Cemal Canpolat yerli mediaya açıqlamasında bildirib ki, Türkiyə cəfəriləri və mövləvi dərgahları da prezident seçkilərində prezident Ekmeleddin İhsanoğlunu dəstəkləyəcək.

**Canpolat bildirib ki, ələvi camea insanlara vicdan azadlığı vəd edən isma səs verəcək:** "Biz insanların inanclarına görə sıxışdırılmadığı, qadınların qəhqəhə çəkmələrinin ayıb sayılmadığı, dünyaya neçə övlad gətirmək qərarını özləri verdikləri bir ölkə istəyirik. Dövlətlə, bayraqla problemi olmayan bizlər Türkiyənin gələcəyi üçün Ekmeleddin İhsanoğluna səs verməyi qərara aldıq. Bu ölkədə prezident olmaq istəyən şəxs bölücülük, məzhəbçilik etməyən şəxs olmalıdır".



**Türkiyə müxalifətinin prezidentliyə namizədi Qarabağ problemi çözülməmiş, 1 milyon qaçqın yurduna dönməmiş Türkiyə-Ermənistan sərhədlərinin açılmasına qarşıdır**

Türkiyə qaynaqları xəbər verir ki, ölkədə yaşayan ələvilərin sayı 15 milyondur. Onların 8,5 milyonunun səsvermə hüququ var. İndiyə qədərki seçkilərdə bu kəsim AKP-nin elektoratı olub. Ancaq son zamanlar ələvilərlə iqtidar partiyası arasında münasibətlər soyuqdur. Xüsusən 17 dekabr Böyük Rüşvət əməliyyatından sonra ələvilərlə iqtidar arasındakı çatlar dərinləşib. AKP-nun rüşvət və korrupsiya qalmaqalından sonra ələvilərin parlamentdəki təmsilçisi sənətçi Sabahat Akkiraz da istefa verib.

Onu da vurğulayaq ki, ölkədəki bir sıra kürd əşirətləri də ələvidir. Bu isə həm də o anlama gəlir ki, Türkiyə kürdlərinin səsi seçkilərdə 3 yerə bölündü. PKK dəstəkçiləri Selahettin Demirtaşa, bir hissə AKP-yə, böyük bir kəsim isə Ekmeleddin İhsanoğluna səs verəcək.

Türkiyə prezidentliyinə namizədlər 8 avqust saat 24-dən təbliğat kampaniyasını dayandırmalıdır. Bu qərar Türkiyə Yüksək Seçim Qurumunun avqustun 8-də keçirilən toplantısında qəbul olunub.

Həmin saatdan namizədlərin və onların səlahiyyətli nümayəndələrinin mitinq, toplantı keçirməsi, tele-radiokanallarda efirə çıxması yasaqdır. Canlı efirlərlə yanaşı, namizədlərin reklam çarxlarının efir yayımı da dayandırılır. Bu qadağa seçki bitəndən 2 saat sonraya - 10 avqust saat 21-dək qüvvədədir. Yüksək Seçim Qurumu bu haqda qərarını Radio Televiziya Üst Qurumuna göndərib.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 199 (5908) 9 avqust 2014



# İfrat qütblərin qızıl ortası

**Xalid KAZIMLI**

**Vətən söhbəti yenə şiddətlənib. Vətəndaşlarımız vətənpərvərlərə, kosmopolitlərə, bəzilərinin təhqiramiz və sarkastik şəkildə "vətənşüvən" adlandırdığı ultrapatriotlara bölünüb. Şəffaf xəttin haradan keçdiyi bilinmir.**

Hər qrup digərlərini günahlandırır. Hamı özünü dürüst, haqq yolu tutmuş sayır. Siyasi-ideoloji sektalaşma müşahidə olunur. O qədər xaotik bir durum var ki...

Bugünlərdə baş verən hadisələrə bir qədər ayıq gözlə, realistcəsinə baxmaq istəyən, bəşəri dəyərlərin, humanizmin ibtidai etnokimlik hissindən üstün olması fikrini müdafiə edən hər kəs "vətən xaini", "xalq düşməni", "antimilli qüvvə" adlandırıla bilər.

Sosial şəbəkələrdə ifrata varmış şovinizm boy göstərir, şərhlərdə faşist çağırışları yer alır. Hər hansı bir etnik qrupa mənsubluq avtomatik olaraq cinayətkar olmaq kimi qəbul edilir. Başqa cür fikirləşənlər satqındır, xaindir, millətə qarşıdır, "bizdən deyil".

Biz illərlə ermənilərə xas olan bu təfəkkür tərzinə doğru düz iyirmi beş il yol gəlmişik. Nəhayət, biz də gəlib bu cür aşırı millətçilik, qıcqırmış vətənpərvərlik yarışında ermənilərə çatmış, onlarla tən olmuşuq. Düşüncə tərzimiz yaxınlaşıb, ritorikamız eyniləşib.

Söz yox, bizim yerimizdə hər hansı başqa bir millət olsaydı, onun da ərazisinin 20 faizi 20 il işğal altında qalsaydı, 1 milyon qaçqın-köçkünü çadır şəhərciklərinə, köçkün gettolarına sığınsaydı, düşmən gəncləri gəlib onun dədə-baba torpaqlarında yanıq verə-verə fotosessiya edib yaysaydı, onun da millətçiliyi əndazəni aşar, ifrata çatar, illərlə yığılmış nifrəti bir gün hiddət püskürməsinə səbəb olardı.

Ancaq gerçəkdən də güclü olan millət özünü toparlayıb səviyyəsinin bu şəkildə enməsinə təhəmmül etməməlidir. Bu haqq vermir ki, biz dünyaya, Avropaya inteqrasiyadan danışa-danışa, ermənilərdə dominant düşüncə formasına çevrilmiş xəstə millətçiliyi pisləyə-pisləyə özümüz də o cür olaq?

Bununla belə, hiss olunur ki, bir çoxlarının vətənpərvərliyi, millətçiliyi göstərmə xarakterlidir. Əslində onlar heç də böyük vətənpərvər deyirlər, sadəcə, içlərində olsa-olsa bəsit bir yurdsevərlik, təəssübkeşlik var, amma istəyirlər ki, fanatik vətənpərvər, qatı millətçi kimi görünsünlər.

Bir zamanların vətənpərvərliyi ilə indikinin arasında xeyli fərq var. İndiki patriotluq daha sərfəlidir. İndi hakimiyyət orqanları vətənpərvər görünənləri mükafatlandırır, layihələrini maliyyələşdirirlər. *(Əvvəllər əsl vətənpərvərləri tuturdular)*. Hazırda vətən, millət ritorikası ilə qabağa getmək daha asandır. Ona görə də bu, indilikdə dəbdir, siyasi konyukturaya uyğundur.

Bəla burasındadır ki, bizdə kosmopolotizm də ifrat xarakter daşıyır. Özlərini bəşəri dəyərlərin, humanizm prinsiplərinin daşıyıcıları hesab edənlər az qala İsrail dövlətini haram sayan ortodoksal yəhudi hahamları kimi düşünür, millətimiz və dövlətimiz barədə aşağılayıcı fikirlər səsləndirməkdən çəkinmirlər.

Hakimiyyət komandasının dövləti pis, mafiya qayda-qanunlarıyla idarə etməsi, yersiz cəza tədbirləri həyata keçirməsi, ölkəni böyük bir islah-əmək düşərgəsinə, talan obyektinə çevirməsi fikirləri ilə razılaşaq, amma bu, hələ o demək deyil ki, dünyadakı 200 dövlətin hamısından pisik və millət olaraq bu vəziyyətdən çıxmağa, heç bir sahədə uğur əldə etməyə qadir deyilik.

Hər qazanılan qələbəyə xor baxmaq, ölkə adına əldə edilən xırım-xırda uğurlara lağ eləmək, onlara kölgə düşürmək, özünü Qərb təfəkkür tərzi ilə Şərqdə yaşayan əzabkeş kimi aparmaq - milli kosmopolitlərin özünüifadə cəhdləri belədir və sonunun hara varacağı bilinmir.

Adam hərdən fikirləşir ki, onlar nə istəyirlər: ölkəmizin tərəqqisinimi, yoxsa dövlətimizin süqutunumu? Durum bu qədər anlaşılmazdır.

Ancaq bir qızıl orta həmişə var: vətənpərvər, yurdsevər olaq, amma çığırqan patriotlardan olmayaq, millətsevər, elcanlı olaq, amma faşist, iqrçi olmayaq, beynəlmiləlçi, humanist, liberal olaq, amma kosmopolit, manqurt, qınından çıxıb qınını bəyənməyən tısbağa olmayaq.

Qütblərdə olmaq, hər şeydə ifrata varmaq ziyanlıdır. Ağıllı, tədbirli, soyuqqanlı olmaqda yarar var.



# Tovuzda tutulan erməni diversant qəfil öldü

## Karen Petrosyan general Rövşən Əkbərovun qarşısına gətirildi, xalqımızdan və prezidentdən üzr istədi, ertəsi gün isə naməlum səbəbdən öldü; onun içki düşkünü olduğu söylənir...

**Avqustun 7-də Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayon Ağbulaq kəndi ərazisində Ermənistan vətəndaşı saxlanılıb. Tovuz Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, saxlanılan şəxs Ermənistan Respublikasının vətəndaşı, 1969-cu il təvəllüdlü Karen Petrosyandır.**

### Kənd sakini: "Məndən siqaret istədi"

Ağbulaq kənd sakini, 1996-cı il təvəllüdlü Quliyev Röyal İsmixan oğlunun bildirdiyinə görə, sərhədi keçən ermənini o tutub. "Evdə yatırdım. Eşitdim ki, həyətdə kimsə anamdan çay istəyir. Çıxdım həyətə. Məni görən kimi erməni işarə ilə məndən siqaret istədi. Dedim ki, səndə siqaret yoxdurmu məndən istəyirsən.

Cibindən boş qutunu çıxarıb göstərdi. Gördüm ki, siqaret qutusu bizim ölkədə satılan siqaretə oxşamır. Şübhələndim. Tez maşının təkər açarını götürdüm, onu qorxudub yerə yıxdım. Hardan gəldiyini soruşdum.

Elə bil Azərbaycan dilini başa düşürdü. Cavab verdi ki, Çinarlıdan gəlib. Onu tutub kəndin mərkəzinə apardım və hərbçilərə təhvil verdim" deyə, o bildirib. R.Quliyev onun 45 yaşı olması barədə deyilənlərin bir qədər şübhəli olduğunu söyləyib.

**Onun çox gənc - təxminən 30-35 yaşlarında olduğunu ehtimal edən R.Quliyev erməninin səliqə ilə geyindiyini, mobil telefonunda silah fotolarının olduğunu da qeyd edib. "Soruşduqda dedi ki, qardaşı hərbçidir, telefondakı fotolar da onun silahının fotolarıdır"** - deyə R.Quliyev bildirib. K.Petrosyanın ailəli olmadığı bildirilir.

### Diversiya qrupundan 4 nəfər məhv edilib

Rəsmi xəbərdə deyilir ki, Ermənistan ordusunun təxribat-diversiya qrupunun saxlanılan üzvü Şəmkir hərbi birləşməsinə aparılıb.

APA-nın bölgə müxbirinin məlumatına görə, Şəmkir hərbi birləşməsinə aparılan erməni diversantın jurnalistlər tərəfindən görüntülənməsinə icazə verilib.

Korpusdan bildiriblər ki, itkilər verərək geri çəkilən təxribat-diversiya qrupunun 4 üzvü məhv edilib, daha bir üzvü Berd rayonunun Çinari kənd sakini, 1989-ci il təvəllüdlü Karen Petrosyan isə əsgərlərimiz tərəfindən tutulub.





Diversiya qrupunun məhv edilmiş üzvlərinin üstündən xeyli sayta hərbi silah-sursat aşkar edilərək götürülüb. Hərbi birləşmədən bildiriblər ki, tutulan erməni diversantın üzərindəki mobil telefonda onun hərbi formada şəkilləri və komandirlərinin telefon nömrələri olub. İlkin sorğu zamanı məlum olub ki, 4 nəfərik qrupun məqsədi ordumuzun mövqelərinin arxasına keçərək təxribat və insan tələfatı törətmək olub.

Zərərsizləşdirilən erməni kəşfiyyatçısının üzərindən çıxan mobil telefonda bir sıra şəkillər və hərbi rəislərin nömrələri aşkar olunub. Şəkillərdə isə erməni kəşfiyyatçılarına təlim keçilən bazanın görüntüləri və oradakı hərbi texnika əks olunub.

Dindirilən diversant, korpus komandiri, general-leytenant Rövşən Əkbərovun suallarını cavablandırıb. O, Azərbaycan xalqından və prezidentindən üzr istəyib və öz ölkəsinə geri qaytarılmasını xahiş edib.

### Üzeyir Cəfərov: "Günahı üstümüzə atmasınlar"

Avqustun 8-də səhər saatlarında isə K.Petrosyan qəflətən naməlum səbəbdən dünyasını dəyişib. İlkin ehtimala görə K.Petrosyanın ölümünə kəskin ürək-ağciyər çatışmazlığı, kəskin miokardial infarkt səbəb olub.

Hazırda Müdafiə Nazirliyi Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzinin Gəncə regional bölməsinin ekspertləri ölümün səbəblərini dəqiqləşdirir. Hadisə barədə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyi məlumatlandırılıb. Ailəsinə də onun ölüm xəbəri çatdırılıb. Bunu Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova APA-ya bildirib.

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, həmin şəxsin səhhətində problemlər olmasını Ermənistan tərəfi də etiraf edib:** "Erməni rəsmiləri təsdiqləyirdilər ki, bu adam içkiyə meyllidir, səhhətində problemlər var.

Ola bilsin ki, tutulandan sonra da həyəcanlanıb, sağlamlığında problemlər kəskinləşib. Müdafiə Nazirliyi təklif edə bilər ki, ermənilərin iştirakı ilə tibbi ekspertiza keçirilsin. Sonra heç bir şübhə yeri qalmasın, günahı bizim üstümüzə atmasınlar".

**Ü.Cəfərov düşünmür ki, erməninin ölümü cəbhə xəttində vəziyyəti gərginləşdirəcək:** "Ermənilər bu hadisədən şou düzəltməyə çalışacaqlar, Azərbaycanı gözdən salmaq üçün hər cür təbliğata əl atacaqlar. Sadəcə, diqqətli olmalıyıq, ermənilərin təxribatlarını ifşa etməliyik".

❑ **Emil SALAMOĞLU**





YENİ MÜSAVAT
N 199 (5908) 9 avqust 2014





# “Elat öz missiyasına sadiqdir”

## Rüfət Muradlı: “Bu tədbir milli birliyimiz adına atılan önəmli bir addım kimi dəyərləndirilməlidir”

**Avqustun 3-də Gürcüstanın Başkeçid (Dmanisi) rayonunun Armudlu yaylasında sayca 6-cı Borçalı Türklərinin Elat Mədəniyyət günü keçirildi. Tədbirin keçirilməsi üzrə Təşkilat Komitəsində Ümid Partiyası sədrinin ictimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə müavini Rüfət Muradlı da vardı. Ondan Elat təəssüratlarını öyrəndik.**

***- Rüfət bəy, siz keçən il də Elat günündə iştirak etmişdiniz. Bu il fərqli nüanslar vardımı?***

- Keçən il qonaq kimi qatıldığım tədbirə bu il Təşkilat Komitəsinin üzvü və aparıcı kimi qatıldım. İlk nüanslara elə bundan başlayaq. Əlbəttə, bununla bağlı suallar da doğa bilər. Amma cavab çox sadədir. Məgər biz siyasilərin fəaliyyəti birliyimiz,regionda sülh, soydaşlarımıza sahib çıxmaq, Gürcüstan və Türkiyə ilə strateji əməkdaşlıqların inkişafı, türk xalqlarının birliyi, məzlum millətlərə sahib çıxmağa söykənmirmi? Baxın, “Borçalı” Cəmiyyətinin artıq 6-cı dəfədir düzənlədiyi Elat günündə bütün bu sadaladıqlarım öz əksini tapır. Bəs bu xoşməramlı, bəzən heç siyasilərin belə həyata keçirə bilmədiyi fəaliyyətdən niyə kənarda qalmalıyıq? Builki Elat gününün yaddaqalan əsas nüanslarından biri də məhz bizim firqə maraqlarından kənar, milli birliyimizə yönələn əməkdaşlığımız, iş birliyi həyata keçirməyimiz oldu. Əlbəttə, bu yöndə dəyərli qardaşımız Zəlimxan Məmmədlinin niyyəti alqışalayiq və nümunəvi hesab olunmalıdır. Şübhəsiz ki, 6-cı Elat əvvəlkilərlə müqayisədə daha izdihamlı, daha coşqulu idi. Yəni ən azı keçən ilki Elatla müqayisədə iştirakçı baxımından iki dəfə artım müşahidə olunurdu.

***- Başqa ölkələrdən təmsilçilik hansi səviyyədə idi?***

- Bu əsnada qardaş Türkiyə təmsilçilərinin tədbirə qatılmasını xüsusi qeyd etmək lazımdır. Ayrı-ayrı siyasi düşərgələrə mənsub olmalarına baxmayaraq Elat deyib Borçalı yoluna çıxan və tədbirə özəl rəng qatan qardaşlarımızı bir arada görmək gerçəkdən fərəhləndirici idi. Özəlliklə Qars bələdiyyə başkanı Mürtəza Qaraçanta, Gürsu bələdiyyəsindən Salettin Turan, MHP MK-nin üzvü, Sərhəd boyları dərnəyi sədri Məhərrəm Yıldız, əziz qardaşım İstanbul Türkiyə Azərbaycan Kültür Evi başkanı Hikmət Elp, tanınmış telejurnalist Seyfullah Türksoy, Bursadan Zəkəriyyə Kutlucan, İstanbul Karapapaq dərnəyinin sədri Engin Aybirdi və müavini Mustafa Yıldızla bərabər onlarla digər soydaşlarımızı Elatda görməkdən məmnunluq hissi keçirdim. Güney Azərbaycan aşıqları Muxtar və Mehman Qayabaşı qardaşları da Qaradağın sədasını Borçalıdakı soydaşlarımıza çatdırdılar. Rusiyadan, Pribaltika ölkələrindən, Ukraynadan Elata qatılanlar vardı. Təbii ki, Azərbaycandan yüzlərlə insan, o cümlədən elm, sənət adamları Elat təntənəsini müşahidə etmək üçün həmin gün Armudlu yaylasında idi. Tanınmış qələm ustalarımız Oqtay Rza, Abbas Abdulla, akademik Ramiz Məmmədov, professor Nəsib Nəsibli, tanınmış sənət ustası Solmaz Kosayeva, “Təzadlar” qəzetinin baş redaktoru Asif Mərzili və başqaları öz çıxışları ilə Elat iştirakçılarının rəğbət və alqışlarını qazandılar. Azərbaycan pəhləvanı Laçın Əbdülhuseynovun Elat səhnəsində dünya rekordunu təzələməsi isə bizlərə böyük qürur yaşatdı. Millət vəkili soydaşımız Azər Suleymanovla yanaşı Gürcüstanın bir sira ictimai-siyasi xadimləri də Elatda idi.

***- Sizcə, Elat günlərinin mesajları nə qədər təsirlidir?***

- Elat öz missiyasına sadiqdir. Cənubi Qafqazda barış, Azərbaycan-Gürcüstan-Türkiyə dostluğu, hər üç dövlətin ərazi bütövlüyünə hörmət, Borçalıda əski türk mədəniyyətinin, o cümlədən toponimlərimizin qorunması, soydaşlarımıza sahib çıxmaq, habelə dünyaya sülh çağırışı son illərdə dəyişməyən, əslində daha da inkişaf etdirilən şüarlar olub. Təbii ki, bu təntənəyə, bu zəfərə qarşı çıxanlar da tapılacaq. Çünki Elat günü hər il əvvəlkindən daha güclü təsir bağışlayır . Bu da müəyyən dairələrin korporativ, ya da elə siyasi maraqlarına uyğun gəlməyə bilər. Azərbaycan hakimiyyətinin, özəlliklə Diaspora Məsələləri Komitəsinin Elata biganə münasibəti isə gerçəkdən təəssüf doğurur. Sən dövlət büdcəsindən milyonları xərcləyə-xərcləyə bu günə qədər Elat miqyasında hər hansı tədbir təşkil edə bilmirsən və bir QHT-nin - “Borçalı” Cəmiyyətinin üzvlərinin şəxsi imkanları hesabına təşkil olunan tədbirə də biganəlik göstərirsən. Nəzərə alsaq ki, “Borçalı” insanının bir araya gəlməsi üçün yaranan bu qızıl fürsətə məlum qonşu ölkələrdən də kölgə salmaq istəyənlər az deyil. Elata gəlmirsənsə ondan daha möhtəşəmini ortaya qoymağı bacarmalısan. Amma bununla yanaşı, Mövlanənin də bu deyimini unutmuruq: "Gəl! Kim olursansa ol, yenə də gəl. İstər xristian, istər məcusi, istər bütpərəst ol, istər yüz dəfə tövbəsini pozmuş ol, yenə də gəl! Bizim qapımız ümid qapısıdır! Necəsən, elə gəl!"

Yeri gəlmişkən, bəzən bu günü, bu töreni niyə dağlarda keçirirlər, deyə soruşur dostlarımız. Əzizlərim, peyğəmbərlərimiz tanrıdan vəhy qəbul etmək üçün dağlara çıxmadılarmı? Övliyalar xalqın güzəranı üçün imdad diləmək məqsədilə dağlara pənah aparmadılarmı? Şairlər dərdlərini dağlara söyləyib, ondan nicat diləmədilərmi? Dağlar bizim üçün hər zaman müqəddəsliyini qorumuş və mahiyyətində igidlik də olan Elatla birləşərək köklü, əsrlərdən axıb gələn bir mədəniyyəti köksündə yaşatmağa qərar verib. 6-cı Elat Mədəniyyəti günündə hamımız bu təntənənin bir daha şahidi olduq. Ən önəmli olan isə budur ki, bu tədbir ildən-ilə tərəqqi etməkdədir və bu, milli birliyimiz adına atılan önəmli bir addım kimi dəyərləndirilməlidir.






**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 199 (5908) 9 avqust 2014

# Hərdən Cəbrayılı da alaq



Zamin HACI
zaminhaci@gmail.com

**Son günlərin ən möhtəşəm hadisələrindən biri də, şübhəsiz, bəzi internet saytlarımızın toplaşıb “dezinformasiya yaymamaq haqda müqavilə” imzalaması olmuşdur. Böyük ehtimalla bu, dünya KİV tarixində yenilik, analoqu olmayan hadisə idi.**

Əlbəttə, çox çətin olacaq, ilk dövrlərdə sayta hansı materialı qoyacaqlar, camaat neyləyəcək - bu suallar ortada dolaşır. Eyni zamanda müqayisədən də qaça bilmirik. Bir sürü jurnalistin yalan yazmamaq sazişi təxminən ona bənzəyir ki, müəllimlər də yığışıb “camaatın uşağına düzgün dərs keçməliyik” müqaviləsi bağlayalar.

Bəlkə də lazımdır. Kim bilir... Jurnalistlər cəmiyyətin avanqardıdır axı, hər şeyi öncə görürlər. Avanqardı belə olan millətdən nə gözləmək olar, daha bunu soruşmuram, siz də üz vurmayın. Birtəhər yola verək, hamımızın bir vətəni vardır, bu Azərbaycandır, mən fəxr edirəm ki, azərbaycanlıyam və sairə. Körpü də, sağlığınıza, yolun bir hissəsidir.

Sonra da deyirinik ki, millət qəzet oxumur. Rəhmətliyin uşağı, ta oxumaz da bə! Niyə oxusun? Gündə bu qədər yalan-palan görəndən sonra camaatda qəzetə, dəftər-kitaba, telekanalizasiyaya hörmət, etibar qalarmı? “Yalançının evi yandı, heç kim inanmadı” misalındakı kimi, mən qorxuram bir gün rəşadətli ordumuz möhtərəm ali baş komandan həzrətlərinin rəhbərliyi altında *(son vaxtlar tutulanların hamısının tutulmasını acizanə şəkildə dəstəkləyirəm, istəyirəm türmə rəisi bunu mütləq bilsin)* hücuma keçərək Ağdam və Füzulini gerçəkdən düşməndən azad edə, ancaq heç kim buna inanmaya. Yəni Ağdam və Füzulini azad eləməyimiz bir qədər çox tezliklə baş verdi. Təkcə bu il, mənim yadımda qalan, 3 dəfə azad eləmişik. 8 aya böləndə təxminən 2 ay yarıma 1 dəfə düşür.

Xahiş edərdim dəyərli sayt rəhbərlərimiz, redaktor korpusları, ordu korpusları və başqaları bunu nəzərə alsınlar, gələcəkdə Ağdam və Füzulinin azad edilməsi ildə uzağı 2 dəfə baş tutsun. Bir dəfə yazda, bir dəfə payızda, məsəl üçün. Bu zaman cəmiyyətin umsuqluq sürəti də azalar, hətta ola bilər payıza qədər yazdakı azad etmə əməliyyatını unudarıq. Bir kəndi ildə 5-6 dəfə azad eləmək onun təsərrüfat subyektlərinə, yaşayış obyektlərinə, meşə və bulaqlarına, ceyran və uzunqulaqlarına, traktor və redaktorlarına da ziyandır. Aşınma prosesi gedir, kənd əldən-ələ keçdikcə amortizasiya xərcləri artır. Mən bunu istefada olan bir iqtisadçı kimi yazıram. İldə 2 dəfə - ən düzgünü budur. Hesablamışıq.

Söz düşmüşkən, mən işğaldan azad elədiyimiz rayonlar arasında ayrıseçkilik də görürəm və buna pis baxıram, mənfi yanaşıram, nifrət edirəm. Diqqət etsəniz, adətən Ağdam və Füzulini geri alırıq. Bəs o biri rayonlar? Tutaq ki, Qubadlı və Laçın, Zəngilan və Şuşa bir qədər uzaqdır, bəs Kəlbəcər, Cəbrayıl rayonlarına nə sözünüz? Nə üçün biz arada, heç olmazsa iki ildə bir dəfə Cəbrayıl və Kəlbəcəri də almayaq? Yoxsa hər dəfə baxırsan elə yazıblar: “Ağdam və Füzuli alındı!” Ayıbdır, o biri rayonlar da bizimdir, bizimdir, Naxçıvan da bizimdir, bizimdir, Balakən də bizimdir, Lənkəran da bizimdir, maral, maral, maral, eşqinə düşdüm maral! Nəğmə oxumalıyıq arada, qoy düşmən kor olsun!

Hətta ola bilər hakimiyyət Ağdam və Füzulini çoxdan düşməndən azad eləmişdir, sadəcə, biz görmürük. Məsələn, Abşeron yarımadasında hər yerə 5 metr hündürlüyündə hasarlar çəkiblər, onların arxasında nə baş verir, görə bilirikmi? Yox. Ağdam və Füzulini də hasar çəkib arxasında saxlayırlar. Niyəsini də yazım, görürəm mən izah eləməsəm xeyri yoxdur, qəti fikirləşib beynini yormaq istəməyən oxucu nəsli yetişibdir. Ağdam və Füzulinin azad edildiyini ona görə demirlər ki, o biri rayonları da alıb komplekt açıqlayacaqlar. Nənələrimiz demişkən, indi yatın, hamısını danışsaq sabaha nağıl qalmaz.

# “Soyuq müharibədən Azərbaycana da “pay” düşəcək”

## Natiq Miri: “Rusiya-Qərb qarşıdurması ölkəmizə də sirayət edəcək...”

**“Soyuq müharibə” yenidən başlayır. Qərblə Rusiya arasında münasibətlər hər gün daha da gərginləşir. Avqustun 7-də Ukraynaya səfər edən NATO baş katibi Anders Foq Rasmussen qurumun Rusiya ilə bütün əlaqələrinin təxirə salındığını bildirib. Onun sözlərinə görə, Rusiya Avropanın təhlükəsizliyinə təhlükə törətdiyi üçün bu addım atılıb.**

Qeyd edək ki, elə həmin gün Rusiya Qərb ölkələrinə qarşı ərzaq sanksiyası tətbiq edib. Moskva embarqonun götürülməsinə Rusiyanın üzərindən sanksiyaların ləğvindən sonra baxa biləcəyini bəyan edib. Eyni zamanda Qərbin də Rusiyaya qarşı davamlı sanksiyaları var. ABŞ prezidenti Barak Obama deyib ki, Amerika tərəfindən Rusiyaya qarşı tətbiq olunan sanksiyalar effektlidir və bu ölkənin iqtisadiyyatına neqativ təsir göstərir.

Mütəxəssislərin hesablamalarına görə, Avropa Birliyi ölkələrinin Rusiyaya illik ixracı 120 milyard avrodur. Deməli, sanksiyalar Avropa ölkələrinin iqtisadiyyatlarına da zərbə vuracaq. Eyni zamanda Rusiya daha çox maliyyə sanksiyalarından ziyan çəkəcək. Belə ki analitiklər Rusiyanın bu qadağalardan bu il 23 milyard avro, gələn il isə 75 milyard avro itirəcəyini, Avropa Birliyinin isə bu il 40 milyard, gələn il 50 milyard avro ziyan çəkəcəyini hesablayırlar.

Dünyanın iki nəhəng qütbü arasında növbəti qarşıdurmanın planetin bütün guşələrinə təsirsiz ötüşməyəcəyi indidən proqnozlaşdırılır. Sanksiyalar nəticəsində hansı ölkələrin qazanclı çıxacağı, qarşılıqlı embarqoların hansı ölkələrə faydalı və ya zərərli olacağı ilə bağlı artıq hesablamalar, ilkin təhlillər ortaya qoyulur. Bir çoxlarına görə, “soyuq müharibə”nin yeni dalğasında Çin, Türkiyə və eləcə də ərəb ölkələri qazanclı çıxacaqlar.

**Bəs Azərbaycan üçün yeni “soyuq müharibə” hansı anlamı daşıyır? Azərbaycan yeni mərhələdən nə gözləyir? Siyasi şərhçi Natiq Miri deyir ki, Rusiya hakimiyyətinin imperiya iddiası dünyanı növbəti gərginliyə sürükləyir. Ekspertin fikrincə, qarşıdakı mərhələ qeyri-sabitlik və gərginlik dönəmi olacaq və bu mərhələdən Azərbaycana da “pay” düşəcək:** “Qərblə Rusiya arasında artıq soyuq savaş mərhələsi başlayır. Bir yerdə ki, söhbət əməkdaşlıqdan getmirsə, qeyri-iradi olaraq rəqabət onun yerini tutur. Təəssüf ki, Rusiyanın yeni imperiya iddiası güzəştsiz siyasətə yol açdı ki, bu da dünyanı yenidən soyuq müharibə dönəminə qaytardı. Bu, vəziyyət ilk növbədə Rusiyanın özü üçün çox təhlükəlidir. Bu təhlükə həm də dünyanı hər cəhətdən sabitsizliyə təhrik edəcək ki, bunun ən ciddi təsirlərindən Rusiyanın qonşusu və Cənubi Qafqazın ən strateji ölkəsi olan Azərbaycanımıza da sirayət edəcək”.



Natiq Miri

**Hazırda Dağlıq Qarabağ cəbhəsində baş verən hərbi qarşıdurma və insan tələfatının məhz bu qarşıdurmanın təzahürü olduğunu iddia edən ekspertə görə, təzyiqlər Rusiya Azərbaycandan istədiklərini alanadək davam edəcək. Ancaq hər şey Qərb-Rusiya qarşıdurmasının nəticələrindən daha çox asılı olacaq:** “Qərbin Azərbaycanda geosiyasi maraqlarını nəzərə alaraq Azərbaycan öz təhlükəsizliyini təmin etmək üçün hansısa qlobal güc mərkəzlərinin təhlükəsizlik sisteminə bağlanmalıdır. Azərbaycan kimi strateji bir ölkənin güclü ordusu və qlobal güc mərkəzinə bağlılığı olmasa, dünya gücləri arasında başlanan soyuq savaşın fonunda ayaqda dura bilməz. Güclər arasında manevrlər etmək müəyyən mərhələyə qədər mümkün olacaq. Ancaq ondan sonra strateji seçim gərəkəcək ki, buna da çox gecikmək olmaz. Çünki artıq Rusiyada Putin rejiminin, bütövlükdə də Rusiyanın çökdürülməsinə qərar verilib. Və bu gün küncə sıxışdırılan Putin Rusiyası hər cür gözlənilməz addımları ata bilər. Bu, Ukraynaya hərbi müdaxilə də ola bilər, yaxud regionda yeni bir savaşın çıxarılması da ola bilər. Bu isə Rusiyanın sonunu yaxınlaşdıracaq səbəblərdən biri ola bilər. Bu gün Ermənistanın vəziyyəti çox acınacaqlıdır. Ona görə ki, Ermənistan uduzan tərəfində yer aldı və bu ölkənin gələcəyi Rusiyayla birgə qaranlıq görünür”.

**N.Miri deyir ki, Azərbaycan nisbətən şanslı görünür, çünki hələlik Rusiyanın istəklərinə boyun əyməyib:** “Ancaq bu o demək deyil ki, Azərbaycan uzun müddət heç bir şeyə qarışmayan neytral ölkə olaraq qala biləcək. Bu kontekstdə Ərdoğan hakimiyyətinin illüziyalarına da qapılmağa ehtiyacın olmadığını düşünürəm. Çünki məhz AKP hakimiyyətinin yanlış xarici siyasətinin nəticəsidir ki, həm Ərdoğan hakimiyyəti, həm də Türkiyə tədricən beynəlxalq izolə vəziyyətinə salınır. Ona görə də artıq Qərb Azərbaycanı öz təhlükəsizlik çətirinin altına almağa hazır kimi görünürkən biz Azərbaycan olaraq buna qapıları bağlamamalıyıq”.

❑ KƏNAN

# Kəlbəcərdə əsir düşənlərin ailələri yenə Putinə müraciət etdi

**Ermənistanda əsir düşən azərbaycanlıların ailə üzvləri Rusiya prezidentinə yenidən müraciət ünvanlayıblar.**



Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, Kəlbəcər rayonu ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüş Rusiya vətəndaşı Dilqəm Əsgərovun həyat yoldaşı Firuzə Əsgərova, oğlu Kürdoğlu Əsgərov və Şahbaz Quliyevin Rusiya vətəndaşı olan həyat yoldaşı Albina Veselova Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinə bir daha müraciət edərək iki ölkənin prezidentlərinin Soçi görüşündə bu problemin, Dilqəm Əsgərov və Şahbaz Quliyevin girovluqdan azad olunmasına və Həsən Həsənovun meyitinin qaytarılmasını müzakirə və həll etmələrini xahiş ediblər.

Qeyd edək ki, baş nazirin müavini, Beynəlxalq Humanitar Yardım üzrə respublika komissiyasının sədri Əli Həsənov Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Deniz Duranla görüşüb.

Görüşdə Əli Həsənov BQXK-nın nümayəndəliyinin rəhbərinə bildirib ki, meyitin və girovların qaytarılması məsələsini Xankəndi ofisi ilə birlikdə daimi nəzarətdə saxlasınlar və bu sahədə öz fəaliyyətlərini gücləndirsinlər.

"Dövlətqaçqınkom" bir daha bildirir ki, bütün bu məsələlər ilk gündən ölkə prezidenti İlham Əliyevin nəzarətindədir və bununla bağlı aparılan işlər haqqında mütəmadi məlumatlar verilir.

Görüşdən sonra baş nazirin müavini Həsən Həsənovun ailə üzvlərini qəbul edib.

# Ukrayna Rusiya qazının tranzitini dayandıra bilər

## Baş nazir Yasenyuk Rusiyaya qarşı tətbiq ediləcək sanksiyaları açıqlayıb

**Ukrayna Nazirlər Kabineti Rusiyanın Krımın işğalını dəstəkləyən və Ukraynanın şərqində terrorçuları maliyyələşdirən fiziki və hüquqi şəxslərinə qarşı sanksiyalar paketi hazırlayıb. APA-nın “İnterfaks-Ukraina” agentliyinə istinadən verdiyi məlumata görə, A.Yasenyuk bildirib ki, hökumət Rusiya Federasiyasının və bəzi digər ölkələrin 172 vətəndaşına qarşı sanksiyaların tətbiqi təşəbbüsü ilə çıxış edir. Həmin şəxslərin siyahısı müvafiq qərarın qəbul edilməsi üçün Milli Təhlükəsizlik və Müdafiə Şurasına təqdim olunacaq.**

A.Yasenyuk fiziki və hüquqi şəxslərə qarşı 26 növ sanksiyanın tətbiqi ilə bağlı Ali Radaya qanun layihəsi təqdim edəcəklərini də açıqlayıb. Bu sanksiyalara Ukrayna ərazisində fəaliyyətə, ölkənin internet məkanında yayımlara, özəlləşdirmələrdə iştiraka, lisenziyalardan istifadəyə, Ukrayna ərazisindən tranzitə qadağa qoyulması, eləcə də aktivlərin dondurulması daxildir: “Mən qanun çərçivəsində tətbiq oluna biləcək bütün vasitələrdən danışdım Buna hər cür tranzitin - həm aviauçuşlar, həm də təbii ehtiyatların tranzitinin dayandırılması daxildir”.

Baş nazir etiraf edib ki, Ukrayna Rusiyaya qarşı tətbiq edəcəyi sanksiyalar, eləcə də bu ölkənin aqressiv addımları nəticəsində bir ildə 7 milyard dollar itirə bilər.

YENİ MÜSAVAT
N 199 (5908) 9 avqust 2014



# "Soçidən sonra müharibə başlayacaq" - Təhlil

## Uğurlu Vətən savaşı üçün heç vaxt olmadığı qədər tarixi fürsət yaranıb; qlobal və regional şərtlər, daxili amillər və xalqın ovqatı - hamısı Qarabağın nəfinədir; düşməni yola gətirmək üçün hətta bir uğurlu lokal əməliyyat da yetər...

**Prezidentlərin bu gün gözlənilən Soçi görüşü bütün parametrlərinə görə əvvəlkilərdən fərqlənəcək və əslində bir "qırmızı xətt" olacaq. Ayırıcı "qırmızı xətt " - Qarabağ ixtilafı ətrafında Soçiyədək olan durum və ondan sonrakı vəziyyət. Məsələ ondadır ki, Azərbaycan və Ermənistanın dövlət başçıları arasında indiyədək reallaşmış onlarla görüşdən fərqli olaraq budəfəki təmas problem ətrafında görüş öncəsi olduqca həssas, kardinal şəkildə fərqli və özəl situasiyaya təsadüf edir. Bu da öz növbəsində Soçi danışıqlarının əhəmiyyətini birə-beş artırır.**

O anlamda ki, növbəti nəticəsizlik münaqişənin tarixində tam yeni bir mərhələ aça bilər, o cümlədən qanlı bir mərhələ... Heç şübhəsiz, Moskva yönətimləri, ən əvvəl görüşün təşəbbüskarı olan prezident Vladimir Putin də bunun fərqindədir. Moskvada bilirlər ki, bu görüş o birilərinə bənzəməz, bənzəməməlidir, çünki havadan güclü barıt qoxusu gəlir. Kremlin isə bu dəqiqə iki cəbhədə savaş aparmaq və ya sərhədlərindən xeyli uzaqda olan *(Rusiya heç Ukrayna ilə həmsərhəd ola-ola öz istədiyini edə bilmir)* yeni savaşı idarə eləmək imkanları minimumdur.

Moskvaya Qarabağda savaş qətiyyən lazım deyil. Dəfələrlə yazılıb, bir daha qeyd edək ki, Ukrayna uğursuzluğundan sonra Putinə tezliklə ikinci belə hərbi avantüraya girişmək, üstəlik, sanksiyalar üzündən gündən-günə zəifləyən hərbi büdcə ilə girişmək gərək deyil. Yeni Qarabağ müharibəsi Rusiya üçün vasitəçilik oyununa son qoyub açıq şəkildə tərəf tutmaq deməkdir, Türkiyə kimi son illərin əvəzsiz iqtisadi tərəfdaşını itirmək təhlükəsi, Avrasiya layihələrinin *(Avrasiya Birliyi, Gömrük İttifaqı)* qeyri-müəyyən müddətə dəfn olunması deməkdir.

Bu üzdən Qarabağ savaşı başlarsa, Rusiyanın maksimum bitərəf qalacağı və savaşı dayandırmaq üçün tərəflərə təzyiqlər edəcəyi ehtimalı daha real qiymətləndirilir. Yerli və beynəlxalq çaplı təhlilçilər vurğunu həm də ona salırlar ki, Ukrayna böhranı ucbatından Rusiya-Qərb rəqabəti hələ bitməyib və bu fonda Qərbə, onun köklü maraqlarına qarşı Güney Qafqazda ikinci cəbhə açmaq - Kremlin postsovet məkanına yönəlik "Yaxın xaric" siyasətinin tam fiaskosu, onun dünyadan tam izolyasiyası, hətta çöküşü ilə sonuclana bilər.

Bir çox əcnəbi analitiklər və konfliktoloqlar da hesab edirlər ki, Soçidə münaqişənin həlli üzrə hansısa praktik irəliləyişə nail olunmasa, o zaman təmas xəttindəki gərginliyin artması qaçılmaz olacaq. Bu isə o deməkdir ki, istənilən an geniş miqyaslı hərbi əməliyyatlar başlana bilər. Bunu həm də hər iki tərəfdə hökm sürən ümumi ab-hava diktə edir. Özəlliklə də işğala məruz qalan Azərbaycanda ictimai ovqat müharibə variantının xeyrinədir. Rusiyada nəşr olunan "Nezavisimaya qazeta" bu xüsusda yazdığı da diqqət çəkir.

Sitat: **"Müharibənin başlanması üçün ümumi şərait yetişib. Əgər Soçi görüşü vəziyyəti yumşaltmasa, müharibə başlaya bilər. Bu gözləniləndir"**, - deyə nəşr qeyd edib.

***

Qərbin yeni Qarabağ savaşına yanaşmasına gəlincə, mövqe Azərbaycanın əleyhinə deyil, ola da bilməz. Ən azı o səbəbə ki, ABŞ və Avropa Ukrayna nümunəsində beynəlxalq hüququn, postsovet ölkələrinin ərazi bütövlüyünün tərəfində, aqressiv separatçılığın isə əleyhinə olduğunu əyani şəkildə nümayiş etdirib və etdirməkdədir.

Söz düşmüşkən, ABŞ Senatı Ukrayna, Gürcüstan və Moldovaya NATO-dan kənar Amerikanın hərbi müttəfiqi statusu tanıyan qanun layihəsini artıq təsdiqləyib. Qanuna görə, bu ölkələrə hərbi təcavüz olarsa, Amerika qoşunları həmin ölkələri işğaldan qorumaq üçün onların ərazisinə qoşun yerdə bilər. Həmin qanun Amerikanın Ermənistana deyil, məhz Azərbaycana hərbi köməyini də nəzərdə tutur.

Bu sənəd əlbəttə ki, birbaşa Rusiyanın postsovet məkanında yeni avantüralarına qarşı yönəlib, onun əl-qolunu bağlamağa hesablanıb. Demək, Qarabağ məsələsinə də dəxli var. Bu, həmçinin anlama gəlir ki, daha Rusiya Ukraynaya hərbi müdaxilə edə bilməyəcək, əks halda, Amerika qoşunlarına tuş gələcək. Adekvat surətdə Moskva, Kreml Azərbaycana münasibətdə özünü gözləməli olacaq.

Azərbaycanın isə beynəlxalq hüquqdan, BMT Nizamnaməsindən qaynaqlanan (3-cü bənd) müharibə hüququ var və kimsə onu əlimizdən almayıb. Bu haqq bizə həmçinin, hələ də reallaşmayan BMT qətnamələri, AŞ PA-nın, Avroparlamentin, NATO PA-nın, İslam Əməkdaşlıq Təşkilatının Ermənistanı işğalçı kimi damğalayan qətnamələri verir.

***

Müharibə üçün daxili amillər də kifayət qədər əlverişlidir. Cəbhədəki son olaylara reaksiyalar göstərdi ki, nəticəsiz danışıqlardan bezən Azərbaycan xalqı gözləntiyindən də artıq şəkildə öz torpaqlarının azad etməyə və daxili siyasətdə hər cür qüsurlarına, hətta repressiv hərəkətlərinə rəğmən, müharibə variantında hakimiyyətin arxasında durmağa hazırdır.

Bunu Qarabağ veteranlarının, sadə vətəndaşların könüllü dəstələr yaradıb döyüşə yollanmaq üçün prezidentə göndərdikləri çoxsaylı müraciətlər də təsdiqləyir. Nəhayət, siyasi müxalifət Vətən müharibəsi başlarsa, bütün imkanlarını Azərbaycan naminə səfərbər etməyə hazır olduğunu bir daha ortaya qoyub.

Beləcə, torpaqlarımızı yağı tapdağından hərbi yolla azad eləmək üçün əlimizə bəlkə də bir də belə unikal şans, məqam, fürsət düşməyəcək. Çünki 20 ildən çox atəşkəs müddətində qlobal və regional şərtlər, daxili amillər bunca üst-üstə düşməyib. Qalır təkcə siyasi rəhbərliyin qərarı.

***

Ukraynadakı kimi antiterror əməliyyatı adlanacaq bu müharibə lokal xarakterli da ola bilər: Azərbaycan ordusu ildırım sürətilə keçmiş DQMV-yə girmədən onun ətrafındakı cəmi bircə rayonu və ya 5-6 kəndi azad edib orada möhkəmlənməklə, üzücü danışıqlar prosesinin axarını dəyişə, onu həqiqi mənada konstruktiv məcraya yönəldə, paralel olaraq Qərbi, vasitəçi dövlətləri ikili standart yanaşmadan uzaqlaşmağa vadar edə bilər.

Heç kim demir ki, İrəvanadək gedək, yaxud Ermənistana girək. Buna lüzum yox. Hər halda, Ermənistan KTMT-nin üzvüdür. Bu amil də ciddiyə alınmalıdır - Rusiyanı zorla əleyhimizə qaldırmaq, antiterror əməliyyatını dövlətlərarası münaqişəyə çevirməyə gərək yox. Qeyd edildiyi kimi, hətta keçmiş DQMV ərazisinə girməyə də lüzum qalmır. Əgər Ermənistan Naxçıvan avantürasına getsə, Qars müqaviləsinə əsasən Türkiyəni qarşısında görəcək. Nə qaldı ki?

**Müharibəni, yaxud antiterror əməliyyatını deyirik...**

❑ Siyasət şöbəsi

# Atəşkəs dövründə doğulan şəhidlər



Azər RƏŞİDOĞLU

**Atəşkəs dövründə şəhid olan əsgərlərimizlə bağlı xüsusi bir məqam var. Erməni gülləsindən ölən gənc əsgərlərimizin böyük əksəriyyəti məhz atəşkəs dövründə doğulanlardır. Bu baxımdan, Bişkek sazişi imzalandıqdan sonra anadan olan gənc əsgərlərin ölümündə hər birimiz günahkarıq.**

20 illik atəşkəs dövründə Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir uğura imza ata bilmədik. Nə hərbi sahədə, nə də ki diplomatik cəbhədə ciddi uğurumuz olmadı.

12 may 1994-cü ildə, Bişkek protokolu imzalanarkən yeni doğulan uşaqların bu gün 20 yaşı var. Atəşkəs dövrünün uşaqlarının bu gün cəbhədə, erməni gülləsindən ölməsi belə sual doğurur - kimə lazım idi 20 illik atəşkəs? Nə verdi bizə Bişkek sazişi?

Qarabağı qaytara bilmədik. İtkilər isə göz önündədir. Atəşkəs dövründə anadan olanlar cəbhədə həlak olursa və sülh sazişini imzalamaq mümkün olmursa, deməli, bir ölkə olaraq siyasətimizə də yenidən baxmalıyıq.

Ermənistanla savaşda məğlub olan ölkə çarəsizliyinin acığını ölkə daxilindəki rəqiblərindən çıxmaq istəyir. Azərbaycan insanının bu qədər bir-birinə nifrət etməsinin başlıca səbəblərindən biri də Qarabağdakı məğlubiyyətimiz və atəşkəs dövrünün uşaqlarının həlak olmasıdır. Biz döyüşdə məğlub olduq. Məğlubiyyətin qisasını düşməndən almaq barədə düşünmək əvəzinə bir-birimizin qanına susamışıq.

Ermənistanın Azərbaycan ailələrini yasa məhkum etdiyi bir zamanda, qonşu ölkələrin düşmənçiliyini davam etdirdiyi bir dövrdə ölkə daxilində ən azı kütləvi hala çevrilən həbslərin motivini anlamaq mümkün deyil.

Bu gün mühasirəyə alınacaq yer Xankəndi, İrəvandır, RATİ - nin ofisi deyil. Çarəsizlikdən doğan belə metodlar vəziyyəti daha da qəlizləşdirir.

Bu plan Azərbaycanı diz çökdürmək istəyənlərin dəyirmanına su tökür. Azərbaycanın aydınlarını, hüquq müdafiəçilərini, jurnalistləri və siyasətçiləri həbs etməklə ermənilərə qarşı savaşı zəiflədənlər unutmamalıdırlar ki, bütün bu repressiyalar yalnız düşmənə sərf edir.

Həbs etdikləri hüquq müdafiəçilərinə vergidən yayınmaq maddəsi ilə cinayət işi qaldıranlar sadə bir sual cavab verməli olacaqlar - ittihamlar təsdiqlənərsə, ən pis halda bir neçə min manat vergidən yayına biləcək hüquq müdafiəçi daha ağır iqtisadi cinayət törədir, yoxsa ölkənin sərvətini talan edən və bir qəpik də vergi ödəməyən oliqarx - məmurlar?

Atəşkəs dövründə doğulan uşaqları da iki qrupa bölmək olar. Birinci qrup Qarabağda qan tökənlərin övladlarıdır. Yenə də cəbhədə onlar həlak olurlar. İkinci qrup, Qarabağ savaşından gizlənənlərin övladlarıdır, onlar yenə də hərbi xidmətdən yayınır, Avropa restoranlarında milyonları göyə sovururlar. Elə bu səbəbdən də erməni gülləsindən şəhid olanların sırasında bir nəfər də iri çaplı məmurun övladı yoxdur.

Qarabağda onlarla şəhid verdiyimiz günlərdə Avropanın ən bahalı restoranlarında milyonlar xərcləyənlərin valideynləri isə bu gün hüquq müdafiəçilərini sıradan çıxartmaqla məşğuldurlar.

Belə qarşılıqlı nifrət kökündə yaşayan ölkə Qarabağı azad edə bilməz. Qarabağın azadlığı milli barışıqdan və vətəndaş sülhündən keçir. Öz vətəndaşları ilə repressiyalar dilində danışanlar unudurlar ki, bundan ermənilər də istifadə edəcək və "insan hüquqlarını pozan Azərbaycanda yaşamaq istəmirik" isteriyasına qapılacaq.

Baş verənlər onu göstərir ki, kimlərsə Azərbaycanı məhvə sürükləyir. Proseslərin gedişi olduqca ağır fəsadlardan xəbər verir. Bunun qarşısını almağa siyasi iradə lazımdır. Milli barışığa nail olunmayacaqsa, ölkənin taleyi olduqca qaranlıq olacaq...

YENİ MÜSAVAT
N 199 (5908) 9 avqust 2014



Məleykə Abbaszadə

# Müəllimlik peşəsini seçən abituriyentlərə təqaüd veriləcək

## Məleykə Abbaszadə: "Aşağı bal toplayan abituriyentlər ali məktəblərdən xaric olunmalıdır"

**Ali təhsil müəssisələrinin boş qalan (vakant) plan yerlərinə ixtisas seçimi başlayıb. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından (TQDK) APA-ya verilən məlumata görə, həmin yerlərə ixtisas seçimi avqustun 13-dək internet vasitəsilə aparılacaq.**

Bunu Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə dünən keçirdiyi mətbuat konfransında deyib.

Abituriyentlər elektron ərizədə ali təhsil müəssisələrinin boş qalan plan yerlərinin ixtisasları ilə yanaşı orta ixtisas məktəblərinin ixtisaslarının da kodlarını göstərə bilərlər *(orta ixtisas məktəblərinin qəbul aparılan ixtisasları "Abituriyent" jurnalının 5-ci sayında dərc olunub).*

Həmin jurnalı abituriyent.az saytından da ödəniş etməklə sifariş etmək olar. Eyni zamanda ali təhsil müəssisələrinin boş qalan (vakant) plan yerlərinin siyahısı bu gündən "Abituriyent" jurnalının 8-ci sayında dərc olunacaq.

Qeyd edək ki, bu il ali təhsil müəssisələrinin müsabiqəsində 35995 abituriyent iştirak edib. Onlardan 33623 nəfər ali təhsil müəssisələrinə qəbul olub. Qəbul olmuş abituriyentlərdən 29666 nəfəri Azərbaycan, 3957 nəfəri isə rus bölməsi üzrə təhsil alacaq. Abituriyentlərdən 16129 nəfərini oğlanlar, 17494 nəfərini qızlar təşkil edir.

Tələbə adı qazanmış şəxslər avqustun 8-dən 18-dək sənədlərini daxil olduqları təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər.

O bildirib ki, müəyyən olunmuş müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilmədən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri ali məktəbə göndərilməyəcək.

**TQDK sədrinin sözlərinə görə, ali təhsil müəssisələrinə (dövlət və özəl) qəbul olan abituriyentlərin sayı I qrup üzrə 92,12 faiz, II qrup üzrə qəbulolma faizi 89,77 faiz, III qrup üzrə 90,61 faiz, IV qrup üzrə isə 77,16 faiz olub:** "Cəm olaraq qəbulolma faizi 89,28 faizdir. I qrup üzrə 945, II qrup üzrə 1116, III qrup üzrə 981, IV qrup üzrə 1008 vakant yer qalıb. Vakant yerlərin cəmi isə 4050-dir".

"Gələn ildən xüsusi qabiliyyət tələb edən ixtisaslar üçün orta ixtisas təhsili müəssisələrinə müsabiqə aparılacaq" - deyə, Məleykə Abbaszadə bildirib.

O deyib ki, bu sahəyə sənəd verən gənclər üçün orta məktəblərdə buraxılış imtahanları bir qədər çətinləşəcək: "Belə ki, onlar bu zaman 3 fəndən imtahan verəcəklər".

Komissiya sədri həmçinin bildirib ki, bu il ali məktəblərə sənəd verənlər arasında orta məktəblərdə keçirilən imtahanda "2" alanların sayı hələ tam bəlli deyil.

**Bu il jurnalistika üzrə keçid balının 351-369 olduğunu deyən komissiya sədri bildirib ki, nəticənin bu cür proqnozlaşdırırdıq:** "Bu qaydalar təkmilləşdiriləcək və biz bunu Mətbuat Şurası ilə birgə işləyəcəyik, onların təkliflərini nəzərə alacağıq. Gələn il qaydalarda müvafiq dəyişikliklər etməyə hazırıq".

**M.Abbaszadə deyib ki, jurnalistikaya qəbul üzrə keçirilən yazı müsabiqəsinə buraxılan 400-dən çox abituriyentin yalnız 150-si imtahana gəlib:** "Çünki yüksək bal toplayan uşaqlar öz seçimlərini etdilər və fikirlərini dəyişərək daha yüksək yerlərə qəbul olmağı seçdilər. Çünki onların qəbul olmaq istədikləri fakültə jurnalistika deyildi. Deməli, onların müsabiqədə yazdıqları yazıları da səmimi deyildi".

TQDK sədrinin sözlərinə görə, 2014/2015-ci tədris ili üçün tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə 6414 plan yeri ayrılıb.

**M.Abbaszadə bildirib ki, tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi internet vasitəsilə avqustun 13-dək davam edəcək:** "Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsi ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında toplanılan ballar əsasında aparılır".

**Komissiya sədri qeyd edib ki, ərizəsini təsdiqləmək üçün abituriyent komissiyanın yeni virtual ödəmə kartını almalı və onun şifrəsindən istifadə etməlidir:** "Elektron ixtisas seçimi ərizəsini təsdiqləməyən abituriyentlər müsabiqəyə buraxılmayacaqlar".

Məleykə Abbaszadə onu da qeyd edib ki, ali təhsil müəssisələrinin magistraturalarının boş qalan plan yerlərinə ixtisas seçimi avqustun 11-dək davam edəcək.

**Komissiya sədri əlavə edib ki, boş qalan plan yerləri olan ixtisaslaşmaların siyahısı "Magistr" jurnalının 6-cı sayında təqdim olunub:** "Hər bir bakalavr bu siyahıdan imtahan verdiyi proqrama aid və bitirdiyi bakalavr ixtisasına müvafiq 20-dək ixtisaslaşma kodunu seçə bilər. Bakalavr ixtisaslaşma kodlarının sayını və ardıcıllığını istədiyi kimi seçib ərizəsində göstərir. Seçilmiş ixtisaslaşmaların ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı hüquqi əsas kimi qəbul olunur və bakalavr topladığı bala əsasən müsabiqədən keçdiyi ixtisaslaşmaların birincisinə yerləşdirilir".

**M.Abbaszadə çıxışında həmçinin "aşağı bal toplayan abituriyentlər ali məktəblərdən xaric olunmalıdır", - deyə bildirib. O söyləyib ki, 150 bal toplayan abituriyentlər bu gün müəyyən ixtisasa yiyələnir:** "Lakin onlar həmin ballarla burada yox, xaricdə təhsil alırlar. Təbii ki, bu da xoşagəlməz haldır. Zəiflik var".

**M.Abbaszadənin sözlərinə görə, elə abituriyentlər var ki, 600 baldan çox nəticə göstərib, lakin heç bir yerə ərizə verməyib:** "Yəqin ki, onlar xaricə üz tutacaqlar".

**Komissiya sədri xatırladıb ki, 500-dən çox bal toplayan və müəllimlik peşəsini seçən abituriyentlərə təqaüd veriləcək:** "Biz həmin siyahını Təhsil Nazirliyinə təqdim edəcəyik".

❑ **Hazırladı: M.MAHRIZLI**

# Bağlanan liseylərin binası dövlət idarələrinə verilir

## Bakı Özəl Türk Liseyinin müəllimi: "İndi gəlmişəm, əməyimizi qoyduğumuz liseyimizin yağmalanmasına baxıram"

**Bir müddət əvvəl Azərbaycanda "Nurçu əməliyyatı" zamanı bağlanan "Çağ Öyrətim İşlətmələri" MMC-yə aid liseylər boşaldılır. Bu barədə "Yeni Müsavat"a Nərimanov rayonunda yerləşən Bakı Özəl Türk Liseyindən məlumat verilib. Ötən gün baş çəkdiyimiz bu liseydə sinif otaqlarının boşaldığının, avadanlıqların isə daşındığının şahidi olduq.**






Mühafizəçi liseyə girməyə icazə verməsə də, Atilla Özkök adlı lisey müəllimindən bəzi məlumatları öyrənə bildik. A.Özkökün sözlərinə görə, liseylərin bağlanması şagirdlər qədər onlara da təsir edib. "Çağ Öyrətim İşlətmələri" MMC-də çalışan bütün müəllim kollektivi ölkə başçısına müraciət ünvanlayıb: "Heç bir ölkədə məktəb qapadılmır. Özü də ölkənin təhsilində qabaqcıl məktəblərdən olan bu liseyləri bağlayaraq minlərlə şagirdi, müəllimi çöldə qoymağın adı bilmirəm nədir. 93-cü ildə Azərbaycana gəlmişəm. Mənə bu lisey ailəm qədər əzizdir. İndi gəlmişəm, əməyimizi qoyduğumuz liseyimizin yağmalanmasına baxıram. Əlimdən də bir şey gəlmir".

**Qalib adlı lisey çalışanı isə bildirdi ki, "Çağ Öyrətim İşlətmələri" MMC-yə aid bina dövlət idarələrindən birinə veriləcək:** "Bizə vaxt veriblər, 20 gün içində bütün ləvazimatları binadan çıxarmalıyıq. Lisey bağlandığı üçün parta, lövhə kimi məktəb ləvazimatlarını Bakıda və rayonlarda olan məktəblərə bağışlayacağıq. Keçən dəfə Bakı Şəhər İcra Hakimiyyətindən nümayəndələr gəlmişdi. Dedilər bina tam boşaldıqdan sonra dövlət idarələrindən birinə veriləcək".

Məlumat üçün qeyd edək ki, bir müddət əvvəl Azərbaycan Dövlət Neft Şirkəti təsisçisi olduğu Azərbaycan Beynəlxalq Təhsil Kompleksinin nəzdində fəaliyyət göstərən "Araz Kursları" MMC, onun təsisçisi olduğu digər qurumların və ümumtəhsil məktəblərinin fəaliyyəti dayandırılıb. ARDNŞ bunu "ABTM-də (Azərbaycan Beynəlxalq Təhsil Mərkəzi) yaranmış əlavə xərclərin qarşısının alınması və bu layihənin maliyyə və idarəetmə baxımından mürəkkəbliyini nəzərə alaraq" atıb.

Azərbaycan Beynəlxalq Təhsil Kompleksinin saytında verilən məlumata əsasən, ABTK Azərbaycan Dövlət Neft Şirkətinin təşəbbüsü və Azərbaycan Dövlət Neft Şirkəti, "Practical Solutions Group" və "Çağ" Öyrətim İşlətmələri Şirkətinin təsisçiliyi ilə fəaliyyət göstərən ictimai birlikdir. Birliyin tərkibində 1 gimnaziya, 11 lisey və 1 Beynəlxalq İstedadlar Kompleksi var. ABTM-in təhsil fəaliyyətinin ən yüksək zirvəsində isə Qafqaz Universitetinin durduğunu qurum rəsmən bəyan edir.

❑ **Fərahìm İLQAROĞLU**
**Fotolar müəllìfindìr**

# "İnsanların qulaqları və gözləri başqa mənbələrdən xəbər gözləməkdədir"

## Rəşid Hacılı medianın müharibə sınağını dəyərləndirdi

**Son günlər Azərbaycan mediası müharibə xəbərləri ilə bağlı ilginc savaş verir. Bu informasiya müharibəsində zaman-zaman dezinformasiyalar, qeyri-peşəkarlıqlar da üzə çıxır. Gənc jurnalistlər tez-tez tənqid edilir, qələm əhli vətən təəssübkeşliyi ilə jurnalistika normaları arasında sıxılıb qalır. Bəs əslində necə olmalıdır? Müharibə jurnalistikasının şərtləri, tələbləri nələrdir?**


Rəşid Hacılı

Media Hüququ İnstitutunun direktoru Rəşid Hacılı bildirdi ki, döyüş bölgəsindəki son hadisələrlə bağlı xəbərlərin yayılması vəziyyəti göstərdi. Müsahibimizin sözlərinə görə, sonuc yazılı medianın klassik mediadan daha aktiv və təsirli olduğunu göstərdi: "Adamlar televiziyanın qarşısında oturub, qəzetləri qarşısına açır. Amma qulaqları və gözləri başqa mənbələrdən xəbər gözləməkdədir. Bir yandan bu, plüralizm kimi görünsə də, əslində peşəkar medianın təsir imkanlarının zəifləməsi qorxuludur. Xüsusilə hərbi əməliyyatlar, sülh kimi ictimai önəmli məlumatların yayılmasına kəskin ehtiyac olduğu zamanda bu çox vacibdir. Klassik, peşəkar mediaya inamın itməsi uzun illər mövcud olmuş vəziyyətin nəticəsidir. Onu təcili aradan qaldırmaq, televiziya və radioların, qəzetlərin və peşəkar saytların azadlığını dəstəkləmək, onlara olan inamı bərpa etmək lazımdır. Əks halda, biz ümummilli məsələlərdə ictimai rəyə düzgün və vaxtında məlumat vermək və ictimai rəyi belə məsələlərə səfərbər etmək missiyasını yerinə yetirə bilməyəcəyik".

**R.Hacılı bildirdi ki, bu son hadisələrlə bağlı Müdafiə Nazirliyi peşəkar media ilə yaxından işləməli, onları vaxtında məlumatlandırmalı, onlara hadisə bölgələrindən mümkün operativ məlumat vermə imkanı yaratmalıdır:** "Onları təlimləndirməlidir, peşəkarlıqlarının artması qayğısına qalmalıdır. Üçüncüsü isə təbii ki, jurnalistlərin və medianın özünütənzimləmə, peşə standartlarına hamının əməl etməsinə birgə nəzarət mexanizminin işə salınmasıdır".

❑ **Sevìnc TELMANQIZI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 199 (5908) 9 avqust 2014



# Ermənistanı qaranlıq gələcək gözləyir

## Bunu indi həm də əcnəbi təhlilçilər deyir; işğalçının itirəcəyi isə təkcə Dağlıq Qarabağla bitməyə bilər; Bakı-Ceyhanı, Mingəçevir su anbarını vurmaqla hədələyən erməni generalları, görəsən, Msamor AES-in aqibəti haqda düşünürlərmi?..

**Ümidlər indi də Soçi görüşünə bağlanıb. Ancaq əksər analitiklərin, o sırada bır sıra tanınmış rusiyalı ekspertlərin proqnozu belədir ki, Soçidən də ciddi nəticə gözləməyə dəyməz. O səbəbə ki, sülh danışıqlarında irəliləmək, uğur qazanmaq üçün ilk öncə münaqişə tərəfləri arasında minimum səviyyədə qarşılıqlı etimad atmosferi hökm sürməlidir. O isə yoxdur. Nəinki yoxdur, son bir həftə ərzində işğalçı ölkənin diversiya hərəkətləri, hücumları nəticəsində qarşılıqlı nifrət 21 illik atəşkəs dövründə pik həddə qalxıb. Paralel surətdə görüş ərəfəsində düşmən ölkənin Azərbaycan əleyhinə qarayaxma və təbliğat kampaniyası güclənib.**

Bu xüsusda ola bilsin heç Moskvanın da edə biləcəyi bir şey yoxdur, qalmayıb. Hərgah, belə durumun özü Kremlin strateji maraqlarına tam cavab verir, çünki Azərbaycanla Ermənistan arasından konfrontasiya vəziyyətinin qalması və davamı ixtilafın həllini daha uzaq "qutuya" atır ki, bu da hələlik Rusiyanın Güney Qafqaza yönəlik neoimperiya maraqlarına uyğundur.

Eyni zamanda müharibənin başlanması da Moskvaya sərf eləmir. Ona görə ki, o halda Rusiya Azərbaycanla Ermənistan arasında açıq şəkildə seçim eləməli olacaq. Geniş miqyaslı hərbi əməliyyatların başlaması bu iki ölkənin Avrasiya Birliyinə üzvlük perspektivini də həmişəlik dəfn edə bilər. Odur ki, Qarabağ məsələsində Moskvanın "qamçı və kökə" siyasətinin hələ bir müddət, daha dəqiqi, Putinin Avrasiya layihələri reallaşanacan davam edəcəyini təxmin eləmək mümkündür.

Soçi görüşünə gəlincə, bu təmas daha çox Rusiyanın və ya Putinin özünü reklamı, bir qədər də Qərbə güc nümayişi kimi Kremlə lazım ola bilərdi. Ukraynadakı hərbi-siyasi uğursuzluqlar fonunda bu "əzələ nümayişi" indi Moskvaya çox lazımdır. Yeri gəlmişkən, Dağlıq Qarabağ probleminin həlli mümkünlüyü indi tez-tez Ukraynadakı proseslərin kontekstində, sağdan-soldan qiymətləndirilməkdədir.

***

**Qarabağ məsələsi o sırada ukraynalı analitiklər tərəfindən də analiz edilməkdədir. Məsələn, politoloq Yuri Romanenkoya görə, Ermənistan Dağlıq Qarabağı tezliklə itirəcək. Politoloq özünün facebook səhifəsində müxtəlif faktlara əsaslanaraq rəsmi İrəvanın vəziyyətinin çox çətin olduğunu yazıb: "Ermənistanın mövqelərinin zəifliyi ən əvvəl onun öz qonşuları ilə münasibəti ilə bağlıdır:** Türkiyə - düşmən, Azərbaycan - düşmən, Gürcüstan isə Türkiyənin orbitindədir. O, daim burada öz mövqelərini möhkəmləndirir. Yalnız İranla münasibətlər İrəvana yaşamağa imkan verir. Amma Tehran da son günlər Qərbə doğru yönəlir və bundan sonra Rusiyanın istəklərinə daha az maraq göstərəcək. Rusiya Ermənistanın əsas müttəfiqi və donorudur".

**Ekspert bu və digər səbəblərdən işğalçını yaxşı gələcək gözləmədiyinə əmindir:** "Perspektivlərə gəlincə, yaxın müddətdə Türkiyənin regional təsiri daha da artacaq. İranın regional təsiri bu dəqiqə müəyyənləşdirilməmiş mərhələdədir. Ermənistanın əsas müttəfiqi olan Rusiya yaxın gələcəkdə Ukraynaya görə ağır daxili böhrana girəcək. Beləliklə, Rusiya labirintə daxil olur və özü uğursuzluğa düçar olur. Bunun nəticəsində Ermənistan Azərbaycan və Türkiyə ilə baş-başa qalacaq. Bəs onun hansı şansları olacaq? Heç bir. Bəs Ermənistanın hansı variantı ola bilər? Avropa Birliyi və ABŞ-da olan erməni lobbisindən kömək istəmək. Məsələnin qiyməti necə olacaq? Qarabağ itiriləcək. Əks təqdirdə, ABŞ və Avropa Birliyi Türkiyə ilə Azərbaycana qarşı münasibətlərində hansı vasitələrdən istifadə etməlidir ki, onları dayanmağa məcbur etsin?"

***

Heç şübhəsiz, özünün gerçək sonluğunu yaxşı bilən, Krım olaylarının Dağlıq Qarabağın ilhaqını da yavaş-yavaş dünyanın gündəminə gətirdiyini fərq edən Ermənistanın isteblişmenti son vaxtlar Azərbaycana qarşı xeyli əsəbi və aqressivdilər. Elə olmasaydı, düşmən dövlətin müdafiə naziri Seyran Ohanyan Azərbaycanı Mingəçevir su anbarını vurmaqla hədələməzdi.

Amma nahaq yerə. Gərək şüşəli otaqda oturub başqalarını daş atmaqla hədələməyəsən. Bəs birdən Azərbaycanın raketlərindən biri təsadüfən Msamor AES-ə düşsə, onda erməniərin halı necə olar görəsən? Ermənistanın olan-qalan əhalisi də Ohanyan cə Sərkisyanla birgə qırılıb qurtarmazmı?

Qurtarar. Xatırladaq ki, az öncə başqa bir erməni generalı müharibənin başlayacağı təqdirdə Bakı-Ceyhan kəmərini vura biləcəyi ilə hədələmişdi. Aydındır ki, belə hədələri ermənilərin dilindən Moskva səsləndirir. O Moskva ki, bu dəqiqə heç də yaxşı durumda deyil və faktiki surətdə Ukraynada onun geosiyasi taleyi həll olunur.

***

Rusiyanın tanınmış analitiklərindən olan Stanislav Belkovskinin bu xüsusda fikirləri də yetərincə maraqlıdır və işğalçı ölkəyə yaxşı bir şey vəd eləmir. "Bizim Yol"a açıqlamasında o, Qarabağda yeni müharibənin alovlanması ehtimalları, savaşın kimə sərf etməsi və həmçinin, Prezidentlərin Soçi görüşü barədə mülahizələrini bölüşüb.

**Politoloqun qənaətincə, müharibə o qədər də uzaqda deyil:** "Barıt qoxusu hər gün keçdikcə Azərbaycan-Ermənistan sərhədini daha çox bürüyür. İndi əsas sual "baş verənlərdən sonra məsələni öz məcrasına qaytarmaqla status-kvonun bərpası mümkündürmü" sualıdır. Ukraynada baş verən son hadisələr, onlardan doğan iqtisadi sanksiyalar fonunda Vladimir Putinə sülhməramlı əbası geyinmək olduqca vacibdir. Odur ki, Putin Soçi görüşü zamanı mütləq hansısa real nəticənin əldə olunması üçün imkanı daxilində olan hər şeyi edəcək. Bu nəticə xırda belə olsa, Putin səy göstərəcək. Yəni öz maraqları üçün Putin Qarabağ məsələsinə ciddi girişib".



## Rusiyalı politoloq: "Müharibə elə də uzaqda deyil..."

**Politoloqa görə, hazırkı situasiyada həm dünya, həm də ölkə ictimaiyyətinin diqqətinin bir müddətlik olsa belə, Ukraynadan başqa səmtə yönəldilməsi Kreml başçısı üçün çox vacibdir:** "Putin Ukraynanın cənub-şərqində uğur əldə edə bilmir, sanksiyalar artır və indi onun daha uğurlu fəaliyyət göstərəcəyi bir istiqamət lazımdır. O da ki Ermənistan-Azərbaycan münaqişəsidir. Bu münaqişənin həlli zamanı Putini heç olmasa, mülki sərnişin təyyarələrini vurmaqda ittiham etməyəcəklər. Mənə də çox maraqlıdır: qarşısına qoyduğu məqsədə o, nail ola biləcəkmi?"

**Azərbaycanın işğal olunmuş torpaqlarının mərhələli qaytarılması variantına münasibət bildirən rusiyalı analitik bunun Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş Azərbaycan torpaqlarının qaytarılması üçün yaxşı kompromis hesab edir:** "Buna nail olsa, bu, Putinin böyük uğuru sayıla bilər. Putin bilir ki, o halda dünya birliyi ona ayrı gözlə baxacaq. Hazırda dünya ona yalnız Ukraynada baş verənlərlə bağlı aqressor kimi baxır. Putin bu imici dəyişmək üçün səy göstərəcək. Yəni Dağlıq Qarabağ münaqişəsinin həlli Putin üçün "xilas yolu" ola bilər".

**Ancaq Belkovskiyə görə, heç də hər şey Kreml başçısından asılı deyil:** "Unutmaq lazım deyil ki, artıq qlobal dünyada Putin bu münaqişənin həllində Rusiyanın münasibətləri yaxşılaşan Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın dəstəyinə də ümid edir. Bu fikirləri demək üçün kifayət qədər əsas var. Yaddan çıxarmayaq ki, Krım hadisələri zamanı yarımadada alovlana biləcək Krım tatarlarının üsyanının genişlənməməsinə məhz Ərdoğan kömək etdi".

**Politoloqun zənnincə, əgər söhbət konkret rayonların azad edilməsindən gedəcəksə, onda Azərbaycandan da ciddi güzəştlər tələb ediləcək:** "Bu güzəştləri isə Putin birbaşa yox, Ərdoğan vasitəsilə reallaşdıra bilər. Doğrudur, söhbətin hansı güzəştlərdən getdiyini bu gün söyləmək olmaz, amma Soçidə Putin davamlı atəşkəsin bərpasına nail olsa, bunun özü də uğur sayılacaq. Dediyim kimi, Ukrayna böhranının vurduğu ziyanlar fonunda istənilən irəliləyiş mətbuat tərəfindən nəhəng uğur kimi qiymətləndiriləcək. Təkrar edirəm, Putin üçün indi köhnəlmiş hansısa konfliktin fonunda sülhməramlı əba geyinib diqqəti Ukraynadakı uğursuzluqlardan yayındırmaq çox vacibdir. Bu məqsədlə Soçi görüşündə minimum plan davamlı atəşkəsə nail olmaq və tərəfləri kompromisə hazır olmağa çağırmaqdır. Əgər Putin böyük müharibənin qarşısını alan sülhməramlı kimi qələmə verilsə, onda Qərblə qlobal problemlərin həllini sonraya da saxlamaq olar. Qarabağ məsələsində xırda da olsa, irəliləyişə nail olmaqla Putin: a) özünün sülhpərvər olduğunu, b) Qərblə loyal münasibətlərin bərpasına hazır olduğunu göstərmək istəyir. Bəs Bakı və İrəvan buna gedəcəklərmi? Əsl sual elə budur".

***

Lakin bu yerdə politoloqla razılaşmaq çətindir. Ona görə ki, Ermənistan çoxdan Rusiyadan asılıdır və məsələdə müstəqil söz sahibi deyil. Bu gün münaqişədə faktiki, iki tərəf var - Azərbaycan və Rusiya. O üzdən Putin gerçəkdən də məsələdə irəliləyiş olmasını, dünyadakı imicinin yaxşılaşmasını istəməkdə səmimidirsə, o zaman onun müharibəsiz-filansız, işğalçı ölkəyə sadəcə, göz ağartması yetər.



# Savaş səngiyəndən sonra

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Bu ziddiyyətlərlə dolu olan dünyanın hər yerində, hər ölkəsində toplar susandan, güllə səsləri kəsiləndən sonra ikinci cəbhədə informasiya savaşı başlayır... Çox vaxt informasiya üstünlüyünə nail olmaq istəyi, arxada qalan döyüşdə həlak olanları, ağrı-acıları unutdurur. Əslində daha çox yadda qalan da münaqişədə olan tərəflərin bir-biri üzərində informasiya üstünlüyü qazanmaq niyyəti olur. Ölkədəki duruma baxanda belə üstünlüyü ayırd etmək çətin olur, amma xarici mətbuatda yazılanlar, deyilənlər güzgü kimi baş verənlərin üzünə tutulur...**

1994-cü ilin yazından - atəşkəs imzalanandan bəri ən ciddi, savaş havasına kökləndik. Bəlli oldu ki, insanlar "bu il münaqişənin sülh yolu ilə həllini" vəd edənlərdən fərqli olaraq, yeganə doğru yolun savaş olduğuna inanırlar. Sən demə, 20 ildən bəri təkrarlanan vədlər heç kimin qəlbində yaşatdığı torpaq nisgili ilə üst-üstə düşmürmüş...

Düşmən üzərində tam və qəti qələbədən danışmaq hələ tezdir. Ordu döyüş meydanında sınandığı kimi, biz də bir növ psixoloji imtahana çəkildik. Əyər-əskiklər dərhal gözə çarpdı. İndi bildik ki, güclü ordu qədər gərəkli olan bir silahımız yoxdur, ya da arzu olunan qədər deyil. Bu informasiya savaşıdır. Bir az da geniş anlamda təbliğatdır...

Nədənsə dövlət rəsmiləri bu yanlışı heyrət doğuran bir bəhanə ilə unutdurmaq istədilər - sən demə, yaşanan informasiya xaosunun ən birinci səbəbi dəqiq, doğru məlumatları toplamaq üçün vaxt qıtlığı olub. İnformasiya texnologiyalarının bu qədər inkişaf etdiyi bir zamanda belə bəhanə inandırıcı görünmür. Əksinə, məhz bundan sonra səbəblər daha çılpaq şəkildə üzə çıxır...

İqtidarın əlindəki tv-lərin proqramını savaş xəbərləri pozdu. Bütün günü acların qarnını toxların xoşladığı yeməkləri bişirməklə doyduran, şou əhlinin həyatını örnəyə çevirən telekanallar çaşqınlıq yaşadılar.

İqtidar qəzetləri, rəsmi mətbuat isə sadəcə olaraq, susmaq yolunu seçdilər. İllərdən bəri dövlət başçısının rəsmi görüşlərindən stenoqram çap etməyə köklənən qəzetlər belə məqamda nə edəcəklərini bilmirdilər. Hakimiyyətin əsas informasiya agentliyi isə artıq çoxdan ən ləng informasiya yayan qurum kimi ixtisaslaşıb...

Yalnız iki-üç gündən sonra ölkə rəhbərliyi ilə bağlı gecikmiş təriflər sıralandı. Elə təsəvvür yaratmaq istəyirdilər ki, döyüşən bu torpağın keşiyini çəkən əsgər yox, hakimiyyət elitasıdır. Qınamaq da olmur, bu KİV-lər illərdən bəri bu havaya kökləniblər, hakimiyyəti tərifləməyi xalqa xidmət kimi seçiblər.

Bizim istəyimizdən asılı olmayaraq dünyada obyektiv, operativ informasiya məkanını azad, müstəqil mətbuat formalaşdırır. Hakimiyyətlər isə müstəqil mətbuatla işbirliyi qurmağa borclu olurlar. Məhz hakimiyyətlərdən asılı olmayan informasiya mənbələri daha etibarlı və doğru sayılır...

Təəssüflər olsun ki, bizim ölkədə azad mətbuatın fəaliyyəti o qədər o qədər basqılara məruz qalıb ki, onlar daha çox ayaqda qalmaq, öz mövcudluğunu təmin etmək savaşına qoşulublar. Amma bütün bunlara baxmayaraq bu sınaq dolu günlərdə də elə həmin mətbuat xalqın xidmətində durdu. Onlar bütün nöqsanları ilə birlikdə cəmiyyətin inandığı informasiya mənbələri oldular. Nəzərə alsaq ki, dövlətdən informasiya təminatı görməyən bir-iki qəzet, elə o qədər də xəbər portalları elə xaricdən də Azərbaycanda baş verənlərə istinad mənbəyi oldu, dövlət qurumlarının mətbuatla bağlı fəaliyyətinin yarıtmaz olduğu təsdiqini tapacaq...

Qınamaq da olmur, əslində avtoritar rejim bundan artıq heç nəyə qadir deyil. Amma heç olmasa, azad mətbuat qarşısında qağalar çəpəri çəkməsinlər... Dünya bizimlə yox, biz dünya ilə hesablaşmağa məcburuq... Bizim savaş əzmimiz nə qədər yüksək olsa da, dünyada səsimizin eşidilməyi də gərəklidir. Özü də belə təbliğat sinxron şəkildə həm daxilə, həm də dışarıya yönlənməlidir...

İndi Rusiyanın az qala bütün dünya tərəfindən hədəfə alındığı bir məqamda tamam fərqli informasiya məkanı formalaşdırmalıyıq. Kimə sirdir ki, Dağlıq Qarabağ faciəsini bizim taleyimizə biçən məhz Rusiya olub. İndi Rusiyanın özü sıxıntılar yaşayır. Bu da bir fürsətdir...

Hələ gec deyil, bizim ardıcıl informasiya hücumu qurmaq üçün kifayət qədər resurslarımız var.

# Ermənistan Mingəçevir SES-i partlatmaqla hədələdi və... cavabını aldı

## Müdafiə Nazirliyi Ohanyanın təhdidlərinə münasibət bildirdi, stansiyaya terror olsa 26 rayonumuz su altında qala bilər; Üzeyir Cəfərov: "Mühafizə gücləndirilib, bu mümkün deyil, qarşısı alınacaq"

**Azərbaycan erməniləri Mingəçevir Su Elektrik Stansiyasına hücumundan qorxur. Axar.az xəbər verir ki, bu barədə Ermənistanın müdafiə naziri Seyran Ohanyan Ermənistan hökumətinin iclası zamanı bildirib.**

İclas zamanı Ermənistanın fövqəladə hallar naziri Armen Ariçyan da çıxışında bildirib ki, Azərbaycan FHN qüvvələrini sərhədyanı zonalara hərbi xidmətə çağırmaq istəyir.

Ariçyan qeyd edib ki, Müdafiə Nazirliyi onlara təlim üçün ərazi versə, Ermənistan FHN-in 4 min nəfərlik mülki müdafiəsi silahsız da xidmət edə bilər. Ermənistanın baş naziri Ovik Abramyan isə bildirib ki, bu məsələ müzakirə olunmalıdır. Azərbaycan Müdafiə Nazirliyi Ermənistan müdafiə naziri Seyran Ohanyanın Mingəçevir Su Elektrik Stansiyasına qarşı diversiya törədilməsi barədə səsləndirdiyi fikrə cavab verib.

**Müdafiə Naziriyindən axar.az-a verilən məlumatda qeyd olunur ki, belə bir hadisə baş verərsə, Silahlı Qüvvələrin cavabı dərhal və layiqli olacaq:**

"Ermənistan Respublikasının müdafiə naziri Seyran Ohanyanın Mingəçevir Su Elektrik Stansiyasına qarşı diversiya törədilməsi barədə səsləndirdiyi fikrə cavab olaraq bildiririk ki, əgər belə bir hadisə baş verərsə, Silahlı Qüvvələrimizin cavabı dərhal və layiqli olacaqdır.

Silahlı Qüvvələrimiz işğal olunmuş rayonlarımızda və Ermənistan Respublikasının ərazisində yerləşən düşmənin bütün hərbi obyektlərinə zərbə endirmək imkanlarına malikdir.

Ermənistan tərəfindən Mingəçevir Su Elektrik Stansiyasına qarşı hər hansı təxribat cəhdləri baş verərsə, erməni xalqı bilməlidir ki, bunun cavabı onlar üçün daha acınacaqlı olacaqdır. Müdafiə Nazirliyi bəyan edir ki, Ermənistan Respublikası istiqamətində tuşlanmış raketlərimiz düşmən ölkənin paytaxtı İrəvan şəhərini belə yerlə yeksan etmək əmrini icra etməyə hazırdır".



Vaqif Behbudoğlu



Üzeyir Cəfərov

Əslində bu, erməni rəsmilərinin Mingəçevir SES-lə bağlı ilk belə təhdidi deyil. Bundan qabaq da Azərbaycanı SES-i partlatmaqla hədələyiblər. Mühəndis-geoloq Vaqif Behbudoğlu isə deyir ki, əgər belə bir hadisə baş versə, ölkənin təxminən yarısı - 26 rayonu su altında qalacaq.

**V.Behbudoğlunun sözlərinə görə, Mingəçevir SES-də 5 milyard kub metr su var ki, bu da 16, 5 kub kilometr deməkdir:**

"Bu hadisə baş versə, suyun hündürlüyü 9 metrə qalxacaq. Bu halda ölkənin Mərkəzi Aran bölgələri su altında qala bilər. Goranboy, Kürdəmir, Yevlax, Ağdaş, Şirvan, Neftçala ta Biləsuvara qədər gəlib çıxacaq. Bu bölgələr Xəzər dənizi səviyyəsindən az fərqlənir. Ermənilər bu addımı atacaqsa, bunu Rusiya etdirəcək".

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov SES-in vurulmasını nəzəri cəhətdən mümkün sayır, praktiki baxımdan isə yox. Onun sözlərinə görə, bu strateji əhəmiyyətli obyektin etibarlı mühafizəsi təşkil olunub, müasir tələblərə uyğun qurğularla əvəzlənib:**

"Ohanyan unudur ki, bu istiqamətdə mühüm addımlar atılıb. Ölkə başçısı da o zaman bu barədə tapşırıqlar vermişdi. Hətta ermənilər raket zərbələri endirsə belə, bizdə güclü raketlər var ki, su elektrik stansiyasına çatmamış qarşısı alınacaq. Hava hücumundan müdafiə 24 saat ərzində həyata keçirilir, müxtəlif trayektoriyalardan izlənir. O mənada erməni nazirin bəyanatı nəzəri cəhətdən mümkündür, praktiki isə əsla".

**Ü.Cəfərovun fikrincə, bu bəyanat Ermənistanda daxili auditoriyaya hesablanıb:** "Daxili auditoriyanı sakitləşdirmək üçün bu cür hədə-qorxu dolu bəyanatlarla çıxış edirlər. Onun çıxışı terror xarakterlidir. Ancaq Ohanyan yaxşı bilir ki, Azərbaycan Ermənistana ağır, sarsıdıcı zərbələr endirmək imkanına malikdir".

❑ E.SALAMOĞLU

# "Elit Travel"də nə baş verir?

## Turizm şirkətinin əməkdaşı problemlərin çözüldüyünü deyir, onlardan turpaket alan vətəndaşlar isə narahatdır






**Bakıda fəaliyyət göstərən "Elit Travel" turizm agentliyi ilə onun müştəriləri arasında qalmaqal səngimir. Bugünlərdə "Yeni Müsavat"a açıqlama verən Bakı şəhər sakini İradə Axundova sözügedən turizm agentliyindən Türkiyəyə səyahət paketi aldığını, lakin aldadıldığını bildirmişdi: "Oğlumla 2 gün İstanbulu gəzəcək, sonra isə İzmir Kuşadasındakı hotellərdən birində 1 həftə dincələcəkdik. Avqustun 6-da İstanbula uçduq. Ayın 7-də səhər tezdən "Elit Travel"dən bizə zəng edib dedilər ki, Türkiyədəki partnyor şirkət iflas edib, bizim ödədiyimiz məbləğ hotelin hesabına keçməyib, əgər hoteldə qalmaq istəyiriksə yenidən pul ödəməliyik, ya da bron ləğv olunacaq. Bir il işləyib 1 həftə tətil üçün pul yığmışdıq. Bizim əlavə pulumuz yoxdur. Çıxılmaz vəziyyətdə qalmışıq".**

Problemi araşdırmaq üçün "Elit Travel"in ofisinə getdik.

Agentliyin departament direktoru Fərid Hüseynov bizi qarşılayaraq bildirdi ki, hazırda heç bir problem yoxdur. İlk növbədə şirkət barədə informasiya verən F.Hüseynov bunları dedi: "Bizim şirkət 11 ildir fəaliyyət göstərir. Hazırda iki ofisimiz var. Biz beynəlxalq təşkilatların da üzvüyük. Hansı ki, bu bizim etibarımızı artırır. Şirkətimizin 10-dan çox işçisi var. İstər yerli, istər beynəlxalq turlar təşkil edirik. Hər yerə, hər istiqamətə insan göndərə bilirik".

Əvvəllər də belə bir durumla üzləşib-üzləşmədiklərini xəbər aldıqda F.Hüseynov bildirdi ki, belə bir hal əvvəl də yaşanıb. Bu danılmazdır və dünyanın böyük şirkətlərində də belə hallar olur.

**Şikayət etmiş vətəndaşların hazırkı durumu barədə danışan departament direktoru bunları söylədi:** "Axundovlar ailəsi və başqa bir ailəni artıq yerləşdirmişik. Ordakı nümayəndəmiz insanlarla məşğuldur. Biz agentlik olaraq təbii ki, istəmərik imicimiz zədələnsin. Amma portnyor turoperator iflas edirsə, bunda bizim təqsirimiz yoxdur. Bizdə bütün sənədlər var ki, pulu oraya ödəmişik. O şirkət özü də hələ bankrot olduğunu elan etməyib. Yəni onlar da çalışır ki, qonaqları yerləşdirsinlər. Yenə də biz nə edə bilərik?! Bütün sənədlər yerindədir. Uzağı belə olan halda həmin insanlar bizi məhkəməyə verə bilər. Amma buna ehtiyac yoxdur. Çünki real olaraq heç bir problem yoxdur".

**Departament rəhbəri problem yaşayan ki ailənin ödəniş məbləği barədə də məlumat verdi:** "Oğlu ilə əvvəl İstanbulda 3 gün, Kuşadasında isə 1 həftə istirahət edəcək Axundovagil təxminən 3000 manat ödəyiblər. 5 nəfərdən ibarət digər ailə isə 4500 manat ödəyib. Həmin şəxslər artıq yerləşdirilib".

Biz şirkətdə olarkən bir vətəndaş gələrək, səs-küylə təcili şəkildə turpaketini tələb etdi. Şirkəti fırıldaqçılıqda ittiham edən şəxsin səfəri avqustun 19-da olduğu üçün indidən turpaketin ona verilə bilməyəcəyini söylədilər. Şirkət sözçüsünün dediyinə görə, 1 həftədən tez müddətdə müştəriyə sənədləri təqdim edə bilmirlər.

Sonda bildirək ki, "Yeni Müsavat"a verilən informasiyaya görə də artıq "NasTUR" şirkəti 2 ailəni qarşılayaraq hoteldə yerləşdirib. Digər müştərilərin də yerləşdirilməsi üçün tədbirlər görüləcək.

Belə hallarda Azərbaycan qanunlarına görə, bu məsələdə vətəndaşlar qarşısında məsuliyyəti turpaketi təmin edən şirkətlər daşıyır. İndiki halda "Elit Travel" şirkəti məsuliyyət sahibidir. Vətəndaşlar onunla portnyor çalışan "Nas TUR" şirkətinin adını belə problem yaranandan sonra eşidiblər. Qanuna görə belə şirkətlərin gözlənilməz maddi problemlərin çözümü üçün bank təminatları olmalıdır. "Elit Travel"dən isə bildirdilər ki, bu təminatları yoxdur.

❑ Fəridə ABDIYEVA
Fotolar müəllifindir

**Cəbhədə 15 şəhid verdiyimiz bir vaxtda daha bir dəhşətli xəbər Azərbaycan ictimaiyyətini sarsıtdı. Avqustun 6- da iki ailənin 5 azyaşlı uşağı Şüvəlan çimərliyində, "Mayak" adlanan ərazinin qeyri-çimərlik sahəsində suda boğularaq dünyasını dəyişdi. Azyaşlılardan, 10 yaşlı Kəmalə, 9 yaşlı Elgün və 6 yaşlı Fariz Əliyevlər ailəsinin, 14 yaşlı Aydan və 13 yaşlı Hüseyn isə Fərziyevlər ailəsinin övladlarıdır.**



# Dənizə xəbərsiz gedən 5 uşağın dramı...

## Əməkdaşımız çimərlikdə boğulan azyaşlıların yas mərasimindən yazır…









Ölən uşaqlardan üçünün cəsədi dərhal tapılsa da, qalan ikisinin axtarışı bir sutkadan artıq çəkib. Avqustun 7-də Kəmalə Əliyevanın, bir gün sonra isə Fariz Əliyevin cəsədi tapılıb, uşaqlar Mir Möhsün ağa ziyarətgahının yaxınlığındakı qəbiristanlıqda dəfn olunublar.

Dəhşətli faciə yaşayan bu ailənin dərdinə şərik olaraq musavat.com - un əməkdaşı onların evinə baş çəkib.

### Eyni taleyi yaşayan iki qonşu

... Şüvəlan qəsəbəsində eyni məhəllədə iki qonşunun evində yas çadırı qurulub. Dünyasını dəyişən 5 azyaşlı körpənin 3 mərasimi keçirilir. Hadisəni eşidib-bilən hər kəs bu ailələrə dəstək olmağa gəlib. Hər iki evdən gələn ağlaşma, ah-nalə səslərini sözlə ifadə etmək mümkün deyil. Hər kəs hadisənin dəhşətindən danışır, valideynlərin halına göz yaşı tökür...

Zərərçəkənlərin dediyinə görə, həmin gün uşaqlar dənizə xəbərsiz gediblər. Şahidlər uşaqların bir anda dalğaların arasında yox olduğunu deyirlər. Həmin an sahildə 5-dən çox adam olsa da, güclü dalğa səbəbindən heç kim suya baş vura bilməyib.

Hər iki qonşu uşaqlarının evdə olmadığını hiss etdikdən sonra onları axtarmağa başlayıb. Eşitdikləri xəbər isə onların dünyasını alt-üst edib. Valideynlər xəbər tutanda artıq gec imiş...

Qohumlarının sözlərinə görə, Fərziyevlər ailəsinin xanımı hadisədən şok keçirib. Ancaq indi vəziyyəti nisbətən normaldır.

**Batan üç uşağın anası İlahə Əliyeva övladlarının ilk dəfə ondan xəbərsiz dənizə getdiyini deyir:** "Heç vaxt məndən xəbərsiz getməzdilər. Başım işə qarışmışdı. Bir də gördüm ki, uşaqlar yoxdur. Qonşuya getdim, qardaşıma zəng elədim, heç kimdə tapa bilmədim. Sonra eşitdim ki, dənizdə uşaq batıb. Paltarlarını görməsəydim inanmazdım ki, mənim uşaqlarımdır. Heç olmasa biri sağ qalaydı, dərdimi onunla ovudardım".

**Uşaqların atası Qafil Əliyev hadisə vaxtı işdə olduğunu və xəbəri telefonda aldığını deyir:** "Yoldaşım mənə zəng elədi ki, uşaqlar dənizdə boğulub. Mən evə çatanda artıq gec idi. Uşaqlardan ikisinin cəsədini çox çətinliklə tapdılar".

Qeyd edək ki, avqustun 8-də səhər saatlarında sahildən 6 km məsafədə cəsədi tapılan ailənin sonbeşiyi Fariz bu il birinci sinfə gedəcəkdi. Onun iki ay öncədən aldığı məktəbli forması indi ondan anasına qalan son yadigardır.

Övlad acısı yaşayan Qafil və İlahə Əliyevlərin durumu yaxınlarını narahat edir. Qohumların sözlərinə, ötən gün bir neçə dəfə Qafil Əliyevin vəziyyəti pisləşib, onu çətinliklə ayıldıblar. Ailənin yenidən özünü bərpa etməsi üçün psixoloji dəstəyə ehtiyac var.

### Əliyevlər ailəsinin yarımçıq qalan arzuları

**Qafil Əliyev Şüvəlan qəsəbəsində yerləşən bu evə bir il əvvəl köçüb. Gündüzlər fəhlə, gecələr nəzarətçi işləyən bu gənc qazandığı pulla həm ev tikib, həm də 3 övladını böyüdüb. Əzab - əziyyətlə tikdiyi 2 otaqlı, təmirsiz ev isə artıq onun xoşbəxtliyinin məzarı olub. İndi nə verilən təsəllilər, nə deyilən sözlər onun dərdini ovutmur. Son beşiyini bu gün səhər saatlarında dəfn edən ata bunu Allahın yazdığı tale hesab edir:** "Allaha qurban olum, nə etmək olar. Övlad da onun verdiyi nemətdir. Verəndə sevinirik, alanda kədərlənirik".

Qafil Əliyev bu il məktəbə gedəcək oğlunun çox böyük həvəslə hazırlaşdığını, arzularının yarımçıq qaldığını deyir.

### İki gündə 6 nəfərin məzarı olan çimərlik

Hər iki ailəyə başsağlığı verib hadisənin baş verdiyi əraziyə yollanırıq. Şüvəlanda "Mayak" adlanan bu ərazi qeyri -çimərlik sahəsidir. Ancaq ətrafdakı çimərliklərə giriş pullu olduğundan bu qəsəbənin sakinləri qadağan olunmuş ərazidə dincəlməyə üstünlük verirlər. Sakinlərin sözlərinə görə, bu ərazidə külək güclü olduğundan suya baş vurmaq ölümə bərabərdir. Sakinlər deyir ki, bütün bu hadisələrin baş verməsinə rəğmən yenə də burada çimməyə cəhd edənlər var. Ötən gün 15 nəfər polis əməkdaşları çimərliyə gələrək insanları qadağan olunmuş ərazidən uzaqlaşdırıb.

**Biz hadisə yerində olduğumuz zaman Fövqəladə Hallar Nazirliyinin Dövlət Sulardan Xilasetmə Xidmətinin əməkdaşları təhlükəsizlik tədbirlərini davam etdirirdilər. Xilasetmə və Dalğıc işləri üzrə şöbə müdiri Elsevər Həsənov uşaqların axtarışını davam etdirən zaman daha 4 nəfərin boğulma təhlükəsi ilə üzləşdiyini bildirdi. Onlardan üçü xilas edilsə də, bir nəfəri - 24 yaşlı gənci xilas etmək mümkün olmayıb. Onun cəsədi də dünən səhər saatlarında çox böyük çətinliklə tapılıb. Şöbə müdirinin sözlərinə görə, son iki gündə 8 nəfər boğulmaqdan xilas olunub:** "Bu barədə dəfələrlə xəbərdarlıq olunub. Ancaq yenə də insanlar qeyri-çimərlik ərazilərində çimməkdə davam edirlər. Nəticədə bu cür faciələr baş verir".

Elsevər Həsənov xüsusən valideynlərdən azyaşlı uşaqları çimərliyə gətirərkən diqqətli olmağı xahiş edib.

❑ **Nərgiz LİFTİYEVA**

**Fotolar müəllifindir**

---

# Müsəlmanın çəkiləsi dərdi



**Kənan RÖVŞƏNOĞLU**

## Və ya İmam Rəbbaninin 400 il əvvəlki sözü haqda bəzi qeydlər

**Yaxın Şərq və ya daha geniş mənada müsəlman dünyasının yenidən bölüşdürülməsi prosesi gedir. Bu oyunda yenə də "oyunçular" yerli xalqlardır. Liviyadan tutmuş Çinə qədər müsəlman ölkələrində müharibələr, qan davaları, məzhəb savaşları, milli münaqişələr davam edir. Müsəlman aləmi isə olanları yalnız seyr edə bilir, artıq reaksiya verməK üçün reflekslər də tükənib.**

Bu yazını başlayanda bir əhvalat yada düşdü. Deyilənə görə, bir nəfər İmam Rəbbani həzrətlərinə yaxınlaşaraq "Ümməti Məhəmmədin (s.ə.s) xilası üçün dua edin" deyib. İmam Rəbbani isə "siz mənə ümməti Məhəmmədi (s.ə.s) göstərin, mən ona xilas olduğunu xəbər verim" deyib.

Bilməyənlərin nəzərinə: İmam Rəbbani 16-cı əsrin sonları, 17-ci əsrin əvvəllərində yaşayıb. Bu məşhur dialoq *(yeri gəlmişkən, ötən illərdə bu dialoqun müxtəlif variantları olub)* müsəlmanların durumundan narahat olan bir müsəlmanla böyük İslam alimi arasında baş verib.

Göründüyü kimi, mövzu xeyli dərəcədə indi də aktualdır. Aradan təxminən 400 il keçib. Ancaq İslam dünyası yenə bəlalar girdabındadır, müharibələr, din adına qətllər, yoxsulluq, səfalət və sair. Dəyişən heç nə yoxdur.

Atlantik okeanından Altaylara qədər böyük və zəngin coğrafiyanın işğal edilərək istismar edilməsi prosesini yaşayırıq. Bir neçə gün əvvəl Yaxın Şərqdə İslam adına savaşan silahlı qrupların, konkret olaraq İŞİD-in arxasındakı güclər və maraqlar haqda yazı yayıldı. Orada xarici güclərdən bəhs olunur, iddia edilirdi ki, bu tip qruplaşmaların arxasında qlobal güclərin dəstəyi dayanır.

Haqlı iddialardır, ortada təkzibolunmaz faktlar, sənədlər də var. Hətta bunu belə də qəbul edirik: Qərb imperializmi Yaxın Şərqi yenidən bölüşdürmək, sərvətlərini, strateji nöqtələrində nəzarəti əlində saxlamaq üçün planlar qurur, sonra isə bunu həyata keçirir. Razılaşırıq, başqa əlacımız da yoxdur.

Amma bəs "cəbhənin" bu tərəfi? Bəs necə olur ki, bir Allaha, bir Qurana, bir Peyğəmbərə iman gətirən müsəlmanlar öz aralarında anlaşa bilmirlər? Yenə də Allah adına bir-birilərini öldürür, qanına qəltan edir, sərvətlərini ələ keçirir, "kafir" adı qoyub qadını-qızını əsir götürür və sair?! Doğrudanmı, hər şey İslam bayrağı altında edilir? Axı müsəlmanların hamısının iman gətirdiyi, müqəddəs saydığı Quran başqa şey deyir.

Quranın bu ayəsini bütün müsəlmanlar bilir və hər zaman əsas şüar kimi istifadə edir: "Hamılıqla Allahın ipinə *(dininə, Qurana)* möhkəm sarılın və *(firqələrə bölünüb bir-birinizdən)* ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən. O sizin qəlblərinizi *(İslam ilə)* birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız! *("Ali İmran", 103-cü ayə).*

Yenə də İmam Rəbbaniyə qayıtmalı olduq. Bu gün yuxarıda qeyd olunan Quran ayəsinə uyğun olan bir müsəlman cəmiyyəti tapmaq mümkündürmü? Cavab mənfidir. Səbəblər çox ola bilər *(hər zaman belə olur)*, amma ortada acı nəticə var. Müsəlmanlar onları birləşdirməli, ən azı dinc yanaşı yaşamağa səbəb olacaq şeylərdən bir-birilərinə qarşı silah olaraq istifadə edirlər.

Rəbbani doğru deyirdi, bəlkə əvvəlcə Məhəmməd (s.ə.s) ümmətini tapmaq lazımdır?

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

### Elan

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# "Tolkuçka"da müharibə söhbəti...








## Ticarət məkanlarında ən çox müzakirə olunan mövzu cəbhədəki vəziyyətdir

**Bu günlərdə ölkədə demək olar ki, hər yerdə əsasən bir mövzu müzakirə edilir - müharibə. İndi bu mövzu böyükdən tutmuş balacaya qədər hər kəsi maraqlandırır. Biz də insanların cəbhədə baş verən son olaylarla bağlı nə düşündüklərini, nələri müzakirə etdiklərini öyrənmək üçün paytaxtda fəaliyyət göstərən "Razin Tolkuçkası" kimi tanınan Bakıxanov Ticarət Mərkəzinə yollandıq. "Tolkuçka"da satıcıdan tutmuş alıcıya kimi hər kəsin müzakirə etdiyi mövzu müharibənin olub-olmayacağı idi.**

Alıcı gözləyən iki satıcının bu mövzudakı müzakirələrinə qulaq müsafiri olduq. Satıcılardan biri Ermənistanda səfərbərlik elan olunduğunu deyirdi: "Deyirlər Ermənistan artıq səfərbərlik elan edib. Köhnə döyüşçülərini yığır. Biz isə hələ də gözləyirik. Belə gedərsə, əlimizdə olan kəndlərimizi də alacaqlar".

**Söhbətə müdaxilə edən digər satıcı isə "siz nə danışırsız, boş-boş şayiələrə inanmayın" dedi:** "Sən səhv eşitmisən. Hərbi səfərbərliyi bizimkilər edəcək, ermənilər yox. Köhnə döyüşçüləri də yığacaqlar. Ruslar olmasa torpaqlarımızı bir saata ala bilərik. Kimdir axı o ermənilər?!"

**Bir az irəlidə isə bu mövzuda satıcı və alıcı müzakirə aparırdı. Bu söhbətdə satıcı da, alıcı da eyni fikirdə idi. Satıcı Əşrəf Quliyevin dedikləri:** "Olan əsgərlərə oldu. Müharibə istəyiriksə, özümüz getməliyik, uşaqlarımız yox. Çünki torpaqları biz vermişik. Yaxşı təlimatlandırılsaydıq, yaxşı döyüşçü olsaydıq, torpaqlarımız bizdə olardı. Bizim səhvlərimizin bədəlini uşaqlarımız ödəməməlidir". Satıcı da ona haqq verərək torpaqları sülh yolu ilə almağın lazım olduğunu deyir.

**Söhbətləşdiyimiz digər satıcı Elmar deyir ki, 20 ildən çoxdur müharibə şəraitində yaşayırıq:** "Baş verənlər göstərdi ki, biz daha hazırlıqlı olmalı idik. Biz sanki hər an müharibə başlayacaqmış kimi hər gün döyüşə hazırlaşmalı idik. Savaş olsa Rusiya Ermənistana kömək edəcək. Rusiya bizə imkan verməz. Mən Ermənistanın adını çəkmirəm. Çünki ermənilər heç kimdir. Bizimlə müharibə aparan ermənilərin arxasındakı Rusiyadır. Günah bizdədir. Düşmənimizin kim olduğunu bilə-bilə onların dilində danışır, rus dilli məktəblərdə oxuyuruq. Boş yerə əsgərlərimiz yenə şəhid olacaqlar".

**Ancaq "Razin tolkuçkası"nda müharibə olmasını istəyənlər də var idi. Ağdam köçkünü olan Bəhram torpağına qayıtmaq istədiyini deyir:** "Vallah bizimki yaşamaq deyil. Torpaq həsrəti çəkirik. Müharibə eləsinlər, bu dəqiqə gedərəm. Rusun ağzını yummağa nə var ki? Neftini versinlər, çəkilib dursun kənara. Sonra biz də öz işimizi görək, erməniləri məhv edək".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- ✓ *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- ✓ *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- ✓ *Əla tələffüz və güvənlə danışmaq*
- ✓ *Real ingiliscə söhbətlər*

BONUS
English EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

## Yol qırğını davam edir

**Ötən gün respublikanın avtomobil yollarında 8 yol-nəqliyyat hadisəsi baş verib. Bu barədə teleqraf.com-a Respublika Baş Dövlət Yol Polisi İdarəsindən məlumat verilib. Məlumata görə, baş verən yol qəzaları nəticəsində 10 nəfər ölüb, 14 nəfər yaralanıb. Ən ağır yol qəzası Sabirabad rayonunda baş verib.**

Sabirabad rayonu Qaragüney kəndinin ərazisində Saatlı rayon sakini Oqtay Əkbərovun idarə etdiyi "VAZ-21144" və Bakı şəhər sakini Xalıqverdi Allahverdiyevin idarə etdiyi "Toyota Prado" markalı avtomobillər toqquşub. O.Abbasov və X.Allahverdiyevin sərnişini, Bakı şəhər sakini Zakir Surxayov ölüblər. Cəlilabad rayonunda baş verən qəzada 1 nəfər ölüb, 1 nəfər yaralanıb. Saatlı və Qəbələ rayonunda da ölümlə nəticələnən qəzalar baş verib.

## Ana və iki övladını avtomobil vurdu

**Şəmkir rayonunda ağır yol nəqliyyat hadisəsi baş verib. Bu barədə teleqraf.com-a Respublika Baş Dövlət Yol Polisi İdarəsindən məlumat verilib. Məlumata görə, hadisə Şəmkir rayonunun Düyərli kəndinin ərazisində qeydə alınıb. Göygöl rayon sakini Səbuhi İsgəndərov idarə etdiyi "Mercedes" markalı avtomobillə yolu keçən Zəyəm-Cırdaxan kənd sakinləri Dinarə Bayramovanı, onun azyaşlı oğlu Fəqanı və azyaşlı qızı Gültacı vurub. Uşaqlar hadisə yerində ölüb, Dinarə xəstəxanaya yerləşdirilib.**

## Azərbaycan vətəndaşı Rusiyada qətlə yetirilib

**Rusiyada daha bir azərbaycanlı qətlə yetirilib. APA-nın Aran bürosunun xəbərinə görə, qətlə yetirilən şəxs Zərdab rayonunun Pervanlı kənd sakini, 34 yaşlı Əhədov Asim Rasim oğludur. Hadisə avqustun 5-də Voloqda şəhərində baş verib. Əhədov Asim Rasim oğlu və onun əmisi oğlu Şükür Əhədov bıçaqlanaraq xəstəxanaya yerləşdirilib. A. Əhədov ürək nahiyəsindən aldığı ağır xəsarətlərdən dünyasını dəyişib. Mərhumun cənazəsi doğulduğu rayona gətirilib və Pərvanlı kənd qəbiristanlığında dəfn olunub.**

Məlumata görə, Ş. Əhədov hazırda xəstəxanadadır, vəziyyəti ağır olaraq qalır. Kənd sakinlərinin dediyinə görə, 1 qız atası olan A. Əhədov 1 il 8 ay imiş ki, qazanc dalınca Rusiyaya gedibmiş.

Hadisənin hansı şəraitdə baş verdiyi, kim tərəfindən törədildiyi hələlik məlum deyil.

## Rus kəşfiyyatçısı Azərbaycan sərhədində saxlanıldı

**Rusiya Baş kəşfiyyat idarəsinin mayor rütbəli əməkdaşı olduğu deyilən Mübariz Mursalov iyul ayının 29-dan 30-na keçən gecə Rusiyadan Azərbaycana keçmək istəyib. Lakin o, Azərbaycan sərhədçiləri tərəfindən saxlanılıb və geri qaytarılıb. Mənbə saxlanılan şəxslə sərhədçilərin nəzakətlə davrandığını, Azərbaycana girişinə qadağa qoyulduğu xəbərdarlığı edildikdən sonra geri qaytarıldığını bildirib.**

Məlumata görə, M. Mursalov Rusiya Baş Kəşfiyyat İdarəsinin kapitanı olub, daha çox hərbi jurnalist kimi fəaliyyət göstərib. Bu yaxınlarda mayor rütbəsi aldığı deyilir. O, iki ay öncə özünü Dağıstanın Azərbaycandakı nümayəndəliyinin qeyri-rəsmi rəhbəri olaraq təqdim edirdi. Dağıstanda Azərbaycan əsilli Qurbanovlar ailəsinə qarşı əsas kampaniya aparanlardan biri olaraq göstərilir.

**Azərbaycanlılar artıq yay istirahəti üçün planlarını yekunlaşdırıb. Necə deyərlər, dincələn dincəlib, yerdə qalan 21 gündə nə edəcəyini düşünənlər isə yekun qərara gəlib. Amma Turizm Nazirliyi hər gün bir yeni statistika açıqlamaqdadır. Son rəqəmlərə görə, azərbaycanlılar bu il xaricdə dincəlməyə 3 milyard manat xərcləyib. Ümumən isə azərbaycanlıların son beş ildə xaricdə turizm xərcləri təxminən 8 dəfə artıb. Rəsmi statistikaya görə, ötən il Azərbaycanın xaricdəki rezidentlərinə 2,9 milyard dollarlıq turizm xidməti göstərilib, bu da 2012-ci ilin göstəricisindən 16,6 faiz çoxdur və beş il əvvəlki göstəricini 8 dəfə üstələyir. Bu vəsaitin 62,3 faizi, yaxud 1,81 milyard dolları vətəndaşların özəl xarici səfərləri zamanı xərclənib.**

# Nabran Azərbaycanın Antalyası ola bilməz, çünki...

## Yerli işbazlar turizmin anasını necə ağladır; Nabran istirahətinin bilinməyən tərəfləri "Yeni Müsavat"da










Oxucuları rəqəmlərlə çox yormadan bu mənzərənin real səbəbləri barədə yazacağıq. Azərbaycanda istirahət mərkəzləri deyəndə yada ən çox Nabran düşür. Məlum, bir tərəfdə meşə, o biri tərəfdə dəniz... İnsanların istirahəti üçün təbiət bir çox imkanlar və şanslar yaradır. Ötən saylarımızdan birində sizi Nabrandakı "Atlant" istirahət mərkəzindəki durum və qiymətlərlə tanış etmişdik. Amma indi Nabranı "əlimizə alıb", oradakı bir çox istirahət mərkəzlərinə baş çəkdik və qiymətlər, şəraitlə tanış olduq.

**Günü 6-7 manat olan kasıb daxmaları, yoxsa 200 manatlıq hotel otağı?**

Öncə ondan başlayaq ki, Nabranda istirahət söz birləşməsinin altında bir çox detallar var. Yəni bu istirahəti günü 10 manata da başa gətirmək olar, günü 100 manata da. Ona görə də biz sizə bir çox seçimləri təqdim edəcəyik. Məsələn, başlayaq ən ucuzundan. Nabrandakı bir çox istirahət mərkəzlərində, xüsusən də sovet dövründən tikilmiş, insanların daha çox putyovka vasitəsilə gəldiyi istirahət mərkəzlərində yerli işbazlar otaqları ucuz qiymətə kirayəyə verir. Bu tip yerlərdə adambaşına 6-7 manata olan otaqlar var. Amma tam şəraitsiz və təbii ki, yemək servisi olmadan. Quru çarpayı və dörd divar. Evindən yemək, qaz plitəsi, ərzaq gətirənlər... 3 dəfə yemək ehtiyaclarını bu cür ödəyə bilirlər. Amma sutkası 15-20 manatdan başlanan kotteclər var ki, orda şərait nisbətən normal sayılır: hamam-ayaqyolu, fasiləsiz su... Burada da yemək məsələsi ailənin öz öhdəsindədir. İstəyənlər üçün Nabrandakı bəzi ev sahibləri öz evlərini gündəlik 20-25 manata kirayə verir, təbii ki, içindəki bütün əşyaları ilə. Bu halda 10 gün istirahət etmək istəyən vətəndaş minimum 200 manat ev kirayəsinə verir.

**Səhər yeməyi ilə 35, 3 dəfə yeməklə 55 manatlıq qiyməti olan hotellər**

Keçək "Caspi" İstirahət Mərkəzinə. Burada da bir nəfərə günü 30 manat olmaqla kotteclər təklif edir. Qiymətə gündə 3 dəfə yemək və diskoteka daxildir.

Adı daha çox hallanan "Palma" İstirahət Mərkəzində isə vəziyyət "yevropeyski"dir. Dəqiqləşdirmələrimizə görə, burada adambaşı bir günlük istirahət 35 manatdır. Bu qiymətə ancaq səhər yeməyi daxildir. Adambaşı 55 manatlıq istirahət qiymətinə isə gündə 3 dəfə yemək daxildir.

Nabranda "Caspian sea" istirahət mərkəzində adi nömrədə 1 nəfər üçün 1 günlük istirahət 280, lüks şəraitli VİP nömrələrdə isə 1000-1500 manatdır.

**500 avroya cəmi 5 gün istirahət etmək olar**

"Caspian SeaResort"da 500 avro qiymətinə turlar da təşkil edilib. Əmma...

Tur qiymətinə daxildir
- Hoteldə yerləşmə
- Transfer (hava limanı - hotel - hava limanı)
- Səhər yeməyi bufeti: Hər səhər saat 08:00 - dan 11:00-dək.
- Günorta yeməyi bufeti: Hər gün saat 13:30 - dan 15:30dək.
- Sam yeməyi bufeti: Hər axsam saat 19:00 - dan 21:30-dək.
- Spirtsiz içəcəklər: Ayran, kompot, qazsız su,çay-qəhvə xidməti, BUFET SAATLARI DAXİLİNDƏ pulsuzdur. Bufet saatı bitəndə, bütün servis xidmətləri və qonaq otağına tələb olunan yemə-içmə xidməti ödənişlidir.
- Konfrans zalı 24 saat pulsuz.
- Skreen, projector 24 saat pulsuzdur.
- Gündə 2 dəfə çay fasiləsi daxildir.
- Disco: Hər axşam saat 23:00 - dan 01:00 - dək DALĞA restoranında fəaliyyət göstərir.
- Bilyard zalı: 24 saat pulsuzdur.
- Velosipedlər: 24 saat pulsuzdur.
- Sauna: Səhər saat 11:00 - dan axşam saat 18:00 - dək pulsuzdur.
- Tenis: 24 saat pulsuzdur.
- Dartalet: 24 saat pulsuzdur. Oxatanları, hovuzun yanındaki dəsmal paylanan yerdən götürə bilərsiniz.
- Uşaq oyun sahəsi: Balaca uşaqlar üçün oyun sahəsi mövcuddur və 24 saat fəaliyyət göstərir.
- Yelləncək: Hovuzun yanında, meşənin içində 3 ədəd yelləncək vardır.
- Digər: Domino, nərd, şahmat, kart oyunları mövcuddur. Qeydiyyat şöbəsindən götürə bilərsiniz.
- İnternet: WiFi internet vasitəsilə, internetə pulsuz qoşula bilərsiniz.

**Tur qiymətinə daxil deyil**
- Ekskursiyalar *(qədim İçərişəhər, Abşeronun zərdüşt dövrünə aid abidələr və s. Xınalıq kəndi)*
- Bələdçi xidmətləri

Bir adam üçün 5 günlük turun dəyəri twin otaqda - 500 AZN-dan başlayaraq.

Yəni 500 manata 1 nəfər ancaq 5 gün istirahət edə bilər.

**"Yeməkli-yeməksiz" istirahətlər... göz qamaşdırır, amma qarın doyurmur**

Keçək "Malibu" İstirahət Mərkəzinə. Burada da lüks kotteclər var ki, təkcə kirayə haqqı adamın gözünü qaraltmağa kifayət edir. Qiymətlər aşağıdakı kimidir:

2 nəfər-40-50 AZN
4 nəfər- 100 AZN
6 nəfər-120 AZN
8 nəfər-140 AZN

Dediyimiz kimi, bu məbləğə yemək qiymətləri daxil deyil. Yemək üçün restoranlara müraciət etmək lazımdır ki, Nabranda yemək servisi də sizə o qədər ucuz görünməsin. Bu haqda bir qədər sonra.

Xaçmazda yerləşən "Çoban bulaq" İstirahət Mərkəzindən öyrənirik ki, burada 1 günlük istirahət 60 və 80 manata təklif olunur. Mərkəzdən bildirdilər ki, qiymət fərqi otaqların genişliyinə görədir. Bu qiymətlərə yemək daxil deyil. Mərkəzin lüks otaqları 2 nəfər üçün 150 manat, 4 nəfər üçün 250 manatdır. Bu qiymətlərə səhər yeməyi daxildir.

«Atlant» İstirahət Mərkəzində isə 15 iyun-01 sentyabra qədər olan 1 sutkalıq qiymətlər və 45 növ əyləncə daxil (yeməksiz) belədir:

1 otaqlı (2) nəfərlik 55 AZN
1 otaqlı 6 mərtəbəli hotel binada(3) nəfərlik 65 AZN
2 otaqlı (4) nəfərlik 85 AZN

*Kotteclər*

2 otaqlı lüks (4)nəfərlik 110AZN
3 otaqlı yarı lüks(6)nəfərlik 135AZN
3 otaqlı lüks(6)nəfərlik 165AZN

*Yay qiymətləri:*

1 gün 1 nəfərin istirahət qiyməti 45 AZN

Qiymətə daxil olan xidmətlər: Otaq, 3 dəfə yemək , 50 növ əyləncə daxildir

**Gündə 3 dəfə yemək yalanına aldanmayın!**

Dediyimiz kimi, Nabrandakı əksər istirahət mərkəzlərində qiymətlər aşağı-yuxarı bu cürdür. Amma bir turisti maraqlandıran bir neçə ilginc məqam var. Bunlardan birincisi və ən önəmlisi yemək məsələsidir. Məsələn, "gündə 3 dəfə yemək" deyə anons edilən əksər istirahət mərkəzlərində yemək olduqca kasaddır. Siz Türkiyənin istirahət mərkəzlərində görməyə öyrəşdiyiniz açıq bufet (İsveç masası), təbii ki, yüzlərlə çeşid soyuq, isti yemək, şirniyyat, limitsiz içki şansına sahib olmayacaqsız. Düşünməyin ki, masanıza növ-növ yeməklər gətiriləcək və siz onların arasından seçim edəcəksiz. Ən yaxşı halda sizi lülə, tikə, basdırma üçlüyünə qonaq edəcəklər, ümumilikdə isə qreçka-qulyaş, makaron-kotlet, mərci supu, küftə... tipli yeməklərlə doyuzdurmağa çalışacaqlar. Evdə yemək istəmədiyiniz dadsız südlü sıyıqlar, yağ-bal cütlüyü səhər masanızı bəzəyəcək. Ofisiantların müştəri ilə davranış mədəniyyəti, xidmət qabiliyyətindən isə heç danışmağa dəyməz. Müştəriyə "nə deyirsən?", "bizdə bunlar komplektə daxildir, istəmirsən götürmə"... tipli cavablar verən personalla isə əsəbsiz bir istirahətdən söhbət gedə bilməz.

Daha bir detal. Əgər siz yerli istirahət mərkəzlərində unikal təmizlik, hotel xidmətinə ümid edirsinizsə, bundan da gözünüzü çəkin. Çünki hoteldə qalanda sizin döşək ağlarını ancaq həftədə bir dəfə dəyişəcəklər. Xadiməyə 3-5 manat ödəməsəniz, otağınızın yığışdırılmasından söhbət belə gedə bilməz. Halbuki "otaq servisi" özünə və müştərisinə hörmət qoyan bütün hotellərin vacb atributudur və xidmətə daxildir. Bunun üçün heç kimə "görüm-baxım" etmək lazım deyil.

**İnəklərlə birgə Nabran dənizinə?**

Nabranı yerli turistlər üçün cazibədar edən bir məqam onun dəniz və meşəyə yaxınlığıdır. Xatırladaq ki, Nabranda dəniz kənarı olduqca çirklidir. Bir çox hallarda sahibləri inəklərini dəniz sahilində otarır. Ona görə də inəklərlə eyni suda üzmək istəməmək insanların ən təbii haqqıdır. Ən yaxşı halda isə dəniz sahilləri də yerli işbazlar tərəfindən işğal olunub. Onlar 1 saat dəniz kənarındakı stol-stullarda oturmaq üçün 2 manat tələb edirlər. Şəhərlə müqayisədə nisbətən ucuz qiymət olsa da, 10 gün dənizə getmək istəyən vətəndaşın təkcə buna görə 20 manat ödəməli olduğunu nəzərə alın.

Kafelərdəki xidmətə gəlincə, kiçik çaynikdə çay mürəbbə ilə verilirsə, onun qiyməti 5 AZN-dir. Böyük çaynik, 2 qab mürəbbə, ləpə, şirniyyat ilə çayın qiyməti 10 AZN-dır. Samovar, 2 qab mürəbbə, ləpə şirniyyat ilə çayın qiyməti 20 AZN-dır. Kappuçino və kofenin ayrı-ayrılıqda qiymətləri 1 AZN-dir.

Azərbaycanlıların bir çoxu xaricə istirahətə ölkədə turizm xidmətlərinin qiyməti baha olduğuna görə gedir. Ölkə daxilində 1 nəfər üçün normal 7 günlük istirahətin qiyməti minimum 1000 manat təşkil edir. Türkiyədə eyni məbləğə Antalyada 7 gün Avropa səviyyəli serviz təklif edilir, sistemə hər şey *(uçuş, mehmanxanaya transfer, yemək)* daxildir. Azərbaycanda isə bu məbləğə yalnız hoteldə gecələmək və səhər yeməyi daxildir.

Digər uzaqlaşdıran səbəb servis səviyyəsinin aşağı olmasıdır. Bu Bakıdan kənarda daha çox hiss edilir. Turizm ekspertlərinin fikrincə, Azərbaycanda turizmin inkişafı üçün həvəsləndirici siyasət tətbiq edilməlidir. Buraya ilk növbədə turizm mərkəzləri və regionlarda istirahət zonaları üçün 5 il müddətinə əlavə dəyər vergisinin ləğvi daxil edilməlidir.

Sonda... Nabran lövhələri barədə bu qədər. Və əminəm ki, bir dəfə Nabranı görən şəxs ona Azərbaycanın Antalyası deməyə utanar. Çünki bura Antalyanın "A"sından belə xəbərsizdir. Azərbaycana gözəl təbiət, dağ, meşə, dəniz... bəxş edən Tanrının nemətlərini bu cür istismar etmək isə loru dillə desək, turizmin anasını ağlatmaqdır.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 199 (5908) 9 avqust 2014

# Milyarder ailəsi ilə istirahətdə

Dünyanın ən varlı 5-ci adamı hesab edilən hindistanlı milyarder Lakşmi Mittal istirahətə yollanıb. O, həyat yoldaşı və uşaqları ilə birlikdə Aralıq dənizində 3 həftəlik tətil elan edib. 200 milyon dollarlıq "Amevi" adlı yaxtası ilə dəniz səyahətinə çıxan milyarder övladları - Şahid Kapur, Stil və Aditya ilə oyunlar oynayaraq, kitab oxuyub. 28 milyard dollarlıq sərvətə sahib olan 64 yaşlı L.Mittal səhər yeməyindən sonra xanımı Uşa ilə birlikdə təbiəti seyr edib, təmiz hava və günəş vannası qəbul edib. Lakşmi Mittal 80 metr uzunluğunda, 4 mərtəbəli olan və ingilis bayraqlı yaxtası ilə ötən gün Mikena adasından Bodruma, daha sonra isə Rodosa yollanıb.





## Fil maşının üstündə oturur

Şimali Afrikanın Pilasesburg parkında gəzən bir fil yol kənarında dayanmış maşının üzərində oturaraq hər kəsi şoka salıb. Qısa müddət maşının ətrafında gəzən fil əvvəlcə avtomobilin şüşələrini sındırıb, təkərlərini partladıb. Yanlış zamanda, yanlış yerdə saxlanılan maşının içindəkilər çətinliklə də olsa bayıra çıxa biliblər. Hadisə zamanı filin yaxınlığında olan zoopark işçilərindən biri filin şəkillərini çəkib. Sosial şəbəkədə yayımlanan şəkil minlərlə insan tərəfindən bəyənilib.




## Sərxoş müəllim çılpaq tapıldı

Amerikanın Oklahoma ştatında qəribə hadisə baş verib. Lori Ann Hill adlı qadın bir neçə gün əvvəl təyinatla Voqer bölgəsindəki məktəblərdən birinə müəllim kimi göndərilib. 49 yaşlı qadın məktəbdə işə başladığı ilk gün həddindən çox spirtli içki içərək məktəbə gedib. Lori məktəblərdəki siniflərin birində yarıçılpaq halda mahnı oxuyub, rəqs edərkən tapılıb. Yenicə işə qəbul edilmiş qadını ilk gəldiyi gün məktəbdəki müəllimlərin və şagirdlərin qarşısında pis vəziyyətdə qalıb. Digər müəllimlər Lorini müdirin otağına apararaq əynini geyindiriblər. Hadisə yerinə gələn polislər çağırılıb. Polislər Lorini nəzarətə götürüblər. Məktəbdə içki içən və nalayiq hərəkətlər edən qadın xəbərdarlıq edildikdən sonra bir neçə gün polis şöbəsində nəzarətdə saxlanılıb.

# Öldü, amma uşaq doğdu...

Macar həkimlər infarkt keçirdikdən sonra komaya düşən ananı və bətnindəki övladını 2,5 ay yaşatmağı bacarıblar. Komada olan ananın dünyaya gətirdiyi uşağın sağlam olduğu açıqlanıb. Məlumatlara görə, qadın 6 aylıq hamilə ikən infarkt keçirib, həkimlər nə qədər çalışsalar da, onu xilas edə bilməyiblər. Qadının beyin ölümü gerçəkləşsə də, ürəyi döyünməyə davam edib. Həkimlər beyni ölmüş qadının övladını dünyaya gətirməsi üçün əllərindən gələni ediblər. 2,5 ay reanimasiya şöbəsində qalan və ciddi həkim nəzarətində saxlanılan qadın bu günlərdə övladını dünyaya gətirib. Anası öldükdən sonra dünyaya gələn uşağın səhhətinin yaxşı olduğu və heç bir problemi olmadığı deyilir. Yeni körpənin dünyaya gəlişi atasını və yaxınlarını çox sevindirib.





## İtlər uşaqlara "ağıl öyrədir"

Amerikada aparılan araşdırmalar nəticəsində məlum olub ki, bəzi heyvanların insan üzərində çox yaxşı təsiri olur. Heyvanlar fiziki və zehni problemləri olan xəstələr üçün daha təsirlidir. Nyu-York şəhərindəki Green Chomneys adlı xəstə uşaq reabilitasiya mərkəzində olarkən davamlı olaraq itlərlə oynayıb. Mütəxəssislər 12 həftəlik müddətdə heyvanların zehni problemləri olan uşaqlar üzərində yaxşı təsiri olduğunu görüblər. Təcrübələr zamanı yaşları 8-lə 15 arasında dəyişən 32 uşaq səkkiz qrupa ayrılıb. Hər həftə iki qrup itlərlə birlikdə oynamaq üçün həkimlərin nəzarəti altında oyun otaqlarında saxlanılıb. Psixoloq Erika Rogers xəstə uşaqların heyvanlara oynayarkən daha rahat düşündüklərini və rahat oynadıqlarını deyib.




**QOÇ** - Ulduzlar ümumi gərginlikdən xəbər versə də, vəziyyətdən çıxacaqsınız. Bunun üçün ünsiyyətdə olduğunuz insanlarla mübahisələrə, o cümlədən işlə bağlı uğursuzluqlara əhəmiyyət verməməlisiniz.

**BUĞA** - Durumunuzdan bəlli olur ki, məqsədlərinizi reallaşdırmaqda sizə qarşı maneələr çoxdur. Amma narahat olmağa dəyməz. Çünki enerji və gücünüz sizi qələbəyə yaxınlaşdıracaq.

**ƏKİZLƏR** - Maraqlı görüşlər yolunuzu gözləyir. Qarşıdakı həftədə atacağınız mühüm addımları reallaşdırmaq üçün bu gündən maksimum bəhrələnməlisiniz. Sevgi məsələlərində daha səmimi olun.

**XƏRÇƏNG** - İşgüzar danışıqlarda iştirak etmək üçün sərfəli vaxtdır. Bütün müsahiblәriniz sizinlə razılaşacaq. Amma gərək siz də reallıqdan yararlanasınız. Kimisə aldatmaq fikrinə düşməyin.

**ŞİR** - Saat 14-ə qədər ümumi əhvalınız aşağı səviyyədə olsa da, sonrakı müddətdə vəziyyət xeyrinizə olacaq. Boş və mənasız şeylərə görə çılğınlıq etməyin. Təmkinli olmağa çalışın.

**QIZ** - Əgər uzaq səfərə çıxmaq planınız varsa, onu təxirə salmayın. Maliyyə çətinliyiniz olsa belə, borc götürüb yola çıxın. Çünki bu addımı atmaqla, gələcək uğurlarınıza təkan verəcəksiniz.

**TƏRƏZİ** - Ulduzların düzümü şəxsi büdcənizdə artım olacağını bəyan edir. Bu istiqamətdə bütün səylərinizi birləşdirməlisiniz. Nahardan sonra isə səhhətinizə diqqət ayırmalısınız.

**ƏQRƏB** - Yalnız şəxsi büdcənizi artırmaq istiqamətində müəyyən uğurlara yiyələnə bilərsiniz. Qalan məsələlərdə isə risk etməyə dəyməz. Axşamüstü sövdələşmələrə getsəniz, aldanacaqsınız.

**OXATAN** - Astroloji göstəricilər bu təqvimin sizin üçün o qədər də rahat keçməyəcəyini bəyan edir. Səhhətinizlə bağlı problemlərin qabarma və bəzi cəhdlərinizin boşaçıxma ehtimalı var.

**OĞLAQ** - Təəssüf ki, Göy qübbəsi gərgin bir gün yaşamaq ehtimalınızdan xəbər verir. Bu amili nəzərə alıb hər addımda ayıq-sayıqlığınızı artırmalısınız. Haqlı olsanız da, mübahisələrə girişməyin.

**SUTÖKƏN** - Şəxsi büdcənizdə müəyyən çətinlikləriniz olsa da, gün ərzində rastlaşdığınız hadisələr əhval-ruhiyyənizi yüksəldəcək. Çalışın ki, qətiyyətsiz hərəkətlərinizə son qoyasınız.

**BALIQLAR** - Sinoptiklərlə heç də həmişə razılaşmayan ulduzlar bu təqvimin sərin keçəcəyini bəyan edir. Odur ki, planlarınızı təxirə salmayın. Əsas enerjinizi istirahətə və sevgiyə yönəldin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## D vitamini yaddaşı gücləndirir



Amerikada 658 nəfərin iştirak etdiyi araşdırma zamanı məlum olub ki, D vitamini əskikliyi 65 yaşdan sonra yaddaşsızlıq riskini 2 dəfə artırır. Alimlər 6 il ərzində təcrübədə iştirak edən adamların orqanizmdəki D vitamini miqdarını araşdırıblar. Nəticədə məlum olub ki, orqanizmində D vitamini az olan adamların erkən yaşlanma riski digər insanlarla müqayisədə 53 faiz, yaddaşlarını itirmə ehtimalı isə 69 faiz daha çoxdur. Qandakı vitaminlərin miqdarı azaldıqca xəstəliklərə tutulma ehtimalı da bir o qədər artır. Araşdırmanın nəticələri "Neurology" jurnalında yayımlanıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565